HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 44 (784) ▪ 11 noyabr 2015 www.vergiler.az Qiyməti: 40 qəp.

## Elmi araşdırmalar ölkənin iqtisadi potensialının daha da güclənməsinə yönəldilməlidir

*Noyabrın 9-da Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinə həsr olunmuş yığıncaq keçirilib. Yığıncaqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iştirak edib.*

Tədbirdə çıxış edən dövlətimizin başçısı bildirib ki, 70 ildə Akademiya böyük və uğurlu yol keçib, ölkəmizin intellektual potensialının möhkəmlənməsinə çox dəyərli töhfələr verib: «Mən çox istəyirəm ki, Azərbaycan alimləri gələcəkdə ölkəmizin hərtərəfli inkişafında daha fəal rol oynasınlar. Çünki ölkəmizin gələcəyi elmi potensialın səviyyəsi ilə bilavasitə bağlıdır. Hər bir ölkədə, o cümlədən Azərbaycanda inkişaf elmin səviyyəsi ilə bağlıdır. Bu gün biz çalışırıq ki, həyatımızın müxtəlif istiqamətlərində ən müasir texnologiyalar Azərbaycana gətirilsin, tətbiq edilsin və bizim alimlərimiz də gələcəkdə öz işlərini bu texnologiyalar əsasında daha səmərə ilə qura bilsinlər».

Prezident İlham Əliyev bildirib ki, müstəqilliyimizin ilk illərində Akademiyanın işinə münasibət o qədər də müsbət deyildi və o vaxtkı rəhbərlik Azərbaycanda Milli Elmlər Akademiyasına ehtiyacın olmadığını düşünürdü: «Bu, çox səhv bir yanaşma idi. Xoşbəxtlikdən 1993-cü ildə ulu öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra, əlbəttə, bütün bu söhbətlərə son qoyuldu. O vaxtdan bu günə qədər Azərbaycan elminin inkişafına çox böyük diqqət göstərilir. Bu sahə bu gün də prioritet sahələrdən biridir. Əlbəttə ki, müstəqilliyimizin ilk illərində bizim maliyyə vəziyyətimiz indiki kimi deyildi. Azərbaycan çox ağır dövr yaşayırdı. Həm siyasi böhran, hərbi böhran, vətəndaş müharibəsi, torpaqlarımızın işğal altına düşməsi və iqtisadi tənəzzül, əlbəttə, imkan vermirdi ki, Akademiyanın inkişafına lazımi səviyyədə maliyyə vəsaiti ayrılsın. İndiki dövrdə Azərbaycan artıq dünya miqyasında öz iqtisadi inkişaf modelini ortaya qoyub və iqtisadi inkişaf templərinə görə çox böyük rəğbətlə qarşılanır».

Dövlətimizin başçısı bu gün də davam edən qlobal iqtisadi böhrana diqqət çəkərək bildirib ki, biz də dünyada, bölgədə gedən prosesləri izləyərək çalışmalıyıq ki, ölkəmiz üçün riskləri nə qədər mümkünsə minimum səviyyəsinə endirək və buna nail ola bilirik: «Bu gün alovlanan bölgədə Azərbaycan sabitlik adasıdır, sülh, əmin-amanlıq məkanıdır. Azərbaycan vətəndaşları əmin-amanlıq şəraitində yaşayırlar, yaradırlar. Əminəm ki, görülən və görüləcək tədbirlər nəticəsində bu müsbət dinamika, müsbət ab-hava Azərbaycanda daha da güclənəcək. Eyni zamanda, bu gün dünyada yaşanan iqtisadi böhran hələ



ki, davam edir, sonu görünmür. Belə olan halda biz iqtisadi sahədə daha da ciddi islahatlar aparmalıyıq».

Prezident İlham Əliyev iqtisadiyyatın çoxşaxəli inkişafı, regionların iqtisadi artımda rolu və digər məsələlərə toxunaraq iqtisadiyyatın yeni modeli haqqında düşünüldüyünü diqqətə çatdırıb: «Hökumətə, dövlət qurumlarına müvafiq göstərişlər verilmişdir və çox istərdim ki, bizim alimlərimiz də bu işlərdə fəal iştirak etsinlər. Əminəm ki, bizim iqtisadi inkişaf dinamikamız davam edəcəkdir. Çünki bunun təməlində həm artıq görülmüş işlər, infrastruktur layihələri, gözəl investisiya iqlimi dayanır, eyni zamanda, dünyanın mötəbər iqtisadi qurumları da fəaliyyətimizi yüksək qiymətləndirirlər. Həm Dünya Bankı, həm Beynəlxalq Valyuta Fondu hesab edir ki, bu bölgədə - Şərqi Avropada gələcək illərdə ən yüksək iqtisadi templərlə inkişaf edən ölkə Azərbaycan olacaqdır. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumu ölkə iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 40-cı yerə layiq görüb. Bu, çox böyük nəticədir. İki yüz ölkənin arasında 40-cı yeri tutmaq, bir çox inkişaf etmiş ölkələri qabaqlamaq doğrudan da böyük nailiyyətdir və bunu biz neftin, qazın hesabına əldə etməmişik. Düşünülmüş siyasət, iqtisadi islahatlar bunu mümkün etmişdir. Biz çalışmalıyıq ki, bu yüksək templəri növbəti illərdə də saxlayaq və beləliklə, iqtisadi inkişafı uzunmüddətli, dayanıqlı edək».

Prezident İlham Əliyev iqtisadi münasibətlərin yeni mərhələsində alimlərin qarşısında duran vəzifələrə də toxunub. Bildirib ki, elmi araşdırmalar sadəcə olaraq araşdırmalar üçün deyil, ölkə iqtisadiyyatının təhlükəsizlik potensialının güclənməsinə yönəlməlidir. Müstəqillik dövrünə həsr edilən sanballı elmi əsərin yaradılmasının vaxtı gəlib çatıb: «Gələn il biz müstəqilliyimizin 25 illiyini qeyd edəcəyik. Hesab edirəm ki, o vaxta qədər əgər belə sanballı elmi əsər yaradılarsa, bayramımıza çox yaxşı töhfə ola bilər».

İclasda AMEA-nın prezidenti, akademik Akif Əlizadə, Nobel mükafatı laureatı, professor Corc Ficerald Smut, Rusiyanın Dubna şəhərindəki Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru, akademik Viktor Matveyev çıxış ediblər.

## Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanda rəsmi səfərdə olub

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Gürcüstana rəsmi səfər edib. Dövlətimizin başçısını Gürcüstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşılayıblar. Prezident İlham Əliyev səfər çərçivəsində Tbilisidə Qəhrəmanlar Memorialını ziyarət edib, önünə əklil qoyub.*

Həmin gün Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili ilə Azərbaycan Prezidenti İlham Əliyev arasında təkbətək, sonra isə geniş tərkibdə görüş olub. Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili bu səfərin iki ölkə arasında əlaqələrin dərinləşməsinə yeni təkan verəcəyini bildirib, Prezident İlham Əliyev isə Gürcüstanın ölkəmiz üçün çox yaxın ölkə, strateji tərəfdaş olduğunu diqqətə çatdırıb. Dövlətimizin başçısı qeyd edib ki, biz müxtəlif sahələrdə uğurla əməkdaşlıq edirik və bu getdikcə daha da dərinləşir. İstəyirik ki, ikitərəfli əlaqələr daha da sürətlə inkişaf etsin və bütün sahələri əhatə etsin.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikası Prezidentinin və Gürcüstan Prezidentinin Birgə Bəyannaməsi imzalanıb. Sonra dövlət başçıları mətbuata bəyanatlarla çıxış ediblər. Prezident Giorgi Marqvelaşvili bildirib ki, Azərbaycan və Gürcüstan xalqları arasında mövcud münasibətlər ölkələrimizi strateji tərəfdaşa çevirib. Bu da öz növbəsində Azərbaycan, həm Gürcüstan, həm də bütövlükdə Qafqaz regionu üçün çox böyük rol oynayıb. Qeyd edib ki, Azərbaycan Gürcüstanın inkişafında müstəsna rola malikdir: «Azərbaycan hər zaman Gürcüstana nəinki iqtisadi, həmçinin humanitar sahələrdə də dəstək verir. Hər bir gürcü yaxşı bilir ki, Azərbaycan bizə hansı yardımları göstərir. Bunlara misal olaraq, uşaq bağçaları, kilsələr, idmançılarla bağlı xeyriyyə layihələrinin həyata keçirilməsinə verilən dəstəyi və köməyi qeyd edə bilərik. Bu əməkdaşlığa görə də biz Azərbaycana öz təşəkkürümüzü bildiririk. Gürcü xalqı da hər zaman dost Azərbaycan xalqının yanında olacaq».

Gürcüstan Prezidenti Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdikləri layihələrin Avropa üçün mühüm əhəmiyyət daşıdığını bildirib, enerji və nəqliyyat sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətlərindən danışıb.



Prezident İlham Əliyev bəyanatla çıxış edərək bildirib ki, ölkələrimiz arasında imzalanmış Birgə Bəyannamə əlaqələrimizin inkişaf perspektivlərini müəyyən edir: «Bizim əlaqələrimizin təməlində xalqlarımızın birliyi, birgə tariximiz və qardaşlığımız dayanır. Bəyannamədə isə inkişaf perspektivləri haqqında çox konkret müddəalar əksini tapmışdır. Demək olar ki, Gürcüstan və Azərbaycan bütün sahələrdə sıx əməkdaşlıq edir. Biz beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edirik. Bütün məsələlərdə, xüsusilə ölkələrin ərazi bütövlüyü ilə bağlı məsələlərdə bir-birimizə daim dəstək, arxa oluruq... Gürcüstan sərmayə qoyuluşu üçün çox cazibədar ölkədir. Sizin ölkənizdə çox gözəl sərmayə iqlimi yaradılmışdır». Azərbaycan Prezidenti enerji və nəqliyyat məsələlərinin geniş şəkildə müzakirə edildiyini vurğulayıb, region, o cümlədən Gürcüstan üçün mühüm əhəmiyyət kəsb edən «Cənub» qaz dəhlizinin uğurla icra edildiyini diqqətə çatdırıb: «Cənub» qaz dəhlizinin bu gün həm Gürcüstan, həm Azərbaycan, həm Avropa üçün böyük iqtisadi və siyasi mənası vardır. Bu layihə uğurla icra edilir. Əminəm ki, Azərbaycan qazı artıq 2018-ci ildə Türkiyəyə, 2020-ci ildə isə Avropaya daha böyük həcmdə çatdırılacaq. Bu, çox böyük layihədir. Hesab edirəm ki, bu gün Avropada reallaşan ən böyük energetika layihəsidir. «Cənub» qaz dəhlizinin reallaşmasına ən azı 45 milyard dollar sərmayə qoyuluşu nəzərdə tutulur. Azərbaycanın çox zəngin və böyük qaz ehtiyatları vardır. Təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetr səviyyəsindədir. Bu, o deməkdir ki, bundan sonra ən azı 100 il ərzində Azərbaycan həm özünü, həm qonşu ölkələri, eyni zamanda, Avropa ölkələrini böyük həcmdə təbii qazla təmin edə biləcək».

Noyabrın 6-da isə prezidentlər azərbaycanlıların sıx yaşadığı Marneuli rayonunda olublar. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan Pravoslav Kilsəsinin Patriarxı II İliya, ölkə parlamentinin sədri David Usupaşvili və Baş nazir İrakli Qaribaşvili ilə də görüşüb.

## Hərbi sahədə əməkdaşlıq müzakirə edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də ABŞ Hərbi Dəniz Qüvvələrinin katibi Rey Maybusun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Rey Maybus ilə 4 il bundan əvvəlki görüşünü məmnunluqla xatırlayan Prezident İlham Əliyev onun ölkəmizə bu səfərinin Azərbaycan ilə ABŞ arasında müdafiə sahəsində əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün yaxşı imkan yaradacağını deyib. Bu sahə üzrə əməkdaşlığın uzun tarixə malik olduğunu vurğulayan dövlətimizin başçısı bildirib ki, Azərbaycan tərəfi regionda sabitliyin təmin olunması istiqamətində səylərini əsirgəmir. Prezident İlham Əliyev ötən dövr ərzində bölgədə vəziyyətin xeyli dəyişdiyini də qeyd edib.

Ölkəmizə ötən səfərini məmnunluqla xatırlayan Rey Maybus Azərbaycan Silahlı Qüvvələrinin Beynəlxalq Sülhməramlı Missiyanın tərkibində Kosovoda, İraqda, hazırda isə Əfqanıstanda uğurla əməkdaşlıq etdiyini vurğulayıb, treninqlərin, qarşılıqlı təcrübə mübadiləsinin, hərbi təhsil sahəsində əməkdaşlığın önəmini qeyd edib.

### BU NÖMRƏMİZDƏ

VERGİLƏR NAZİRLİYİNDƏ NÖVBƏTİ STRUKTUR VƏ KADR DƏYİŞİKLİKLƏRİ 2

AVSTRİYA VƏ AZƏRBAYCAN ARASINDA VERGİ SAHƏSİNDƏ YAXŞI ƏLAQƏLƏR QURULUB 3

AZƏRBAYCANIN VERGİ SİSTEMİNDƏ MÜTƏRƏQQİ YENİLİKLƏR TƏTBİQ OLUNACAQ 4

VERGİ BORCUNA ETİNASIZ YANAŞMAQ ARZUOLUNMAZ SONLUQLA NƏTİCƏLƏNİR 5

# Proqnoz tapşırığı yerinə yetirilib

2015-ci ilin yanvar-oktyabr ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 5 milyard 970 milyon 247,0 min manat vəsait daxil olmuş, proqnoz tapşırığına 100,1% əməl edilmişdir. On ay ərzində vergi orqanlarında 65.367 vergi ödəyicisi qeydiyyata alınmışdır.

# Vergilər Nazirliyində növbəti struktur və kadr dəyişiklikləri

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda regionların inkişafı ölkədə həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi kimi göstərilmişdir. Regionların inkişafı ilə bağlı qəbul edilmiş və uğurla həyata keçirilən dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı ölkə başçısının sərəncamlarında nəzərdə tutulmuş vəzifələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, regionlardan büdcə daxilolmalarının nəzərəçarpacaq dərəcədə artmasına səbəb olmuşdur.

Bu baxımdan, Vergilər Nazirliyinin ərazi vergi orqanlarının fəaliyyətinə nəzarətin səmərəliliyinin artırılması, vergilərin tam həcmdə və vaxtında ödənilməsinin təmin edilməsi, yerlərdən daxil olan vətəndaş müraciətlərinə baxılmasına nəzarətin gücləndirilməsi məqsədilə nazirliyin strukturunda Ərazi vergi orqanları ilə iş üzrə idarə yaradılmışdır. Yeni idarə nazirliyin Cinayət xarakterli vergi hüquqpozmalarının təhlili və vergi borclarının alınması işinin təşkili Baş İdarəsinin, Audit və operativ nəzarət sahələri üzrə müşavir xidməti şöbəsinin, habelə audit və operativ nəzarət sahələri üzrə nazirin müşaviri vəzifələrinin ləğv olunması və onların ştat vahidləri hesabına formalaşdırılmışdır.

Vergilər Nazirliyinin İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin rəis müavini, vergi xidməti müşaviri Elçin Bəylərov Ərazi vergi orqanları ilə iş üzrə idarənin rəisi vəzifəsinə keçirilmişdir. Vergilər nazirinin digər əmrləri ilə Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin rəis müavini, baş vergi xidməti müşaviri Rövşən Əhmədov nazirliyin Vergi auditi Baş İdarəsinin rəisi, Vergi auditi Baş İdarəsinin rəisi, baş vergi xidməti müşaviri Müsavər Nəbiyev isə nazirin müşaviri vəzifəsinə təyin edilmişlər.

# Rəqabət Məcəlləsi biznesin inkişafını xeyli sürətləndirəcək

Azərbaycan Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı çıxışında toxunduğu ciddi məsələlərdən biri inhisarçılıqla bağlı olub. Dövlət başçısı ölkədə inhisarçılığın azad rəqabət mühitini və iqtisadi inkişafı əngəllədiyini vurğulayaraq haqsız rəqabətin, monopoliyanın aradan qaldırılması üçün müvafiq qurumlara ciddi tədbirlər görməyi tapşırıb. Bu istiqamətdə nəzərdə tutulan əsas məsələlərdən biri azad biznesə maneə yaradan amillərin aradan qaldırılması və yeni mexanizmlərin yaradılması, qanunvericiliyin təkmilləşdirilməsi, Rəqabət Məcəlləsinin qəbul olunmasıdır.

Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının baş məsləhətçisi Faiq Səmədovun sözlərinə görə, hazırda sahibkarlıq sahəsində yoxlamaların dayandırılması, lisenziya və qeydiyyat sisteminin asanlaşdırılması, səmərəli vergi siyasətinin daha da təkmilləşdirilməsi istiqamətində aparılan işlərin mühüm istiqamətlərindən biri azad rəqabət mühitinin təmin edilməsidir: «Dünya Bankının bu günlərdə açıqladığı «Doing Business 2016» hesabatında Azərbaycanın əksər göstəricilər üzrə mövqeyi yaxşılaşıb. Respublikamız «biznesə başlama» göstəricisi üzrə 7-ci, dünya üzrə ilk 10-luq ölkələri sırasında yer alıb. Bu amil Azərbaycanda rəqabətqabiliyyətliliyin yaxşılaşmasına təsir göstərən əsas komponentlərdən biri hesab olunur. Bununla yanaşı, rəqabət qabiliyyətinin daha da artırılması üçün biznes sektorunda bəzi islahatların aparılmasına ehtiyac var. Ölkə daxilində istehsalın stimullaşdırılması, həm yerli, həm də xarici biznesin daha yaxşı və rəqabət şəraitində işləməsi, eləcə də istehsalçıların maraqlarının qorunması baxımından hüquqi qanunvericilikdə bir sıra dəyişikliklərin aparılması zəruridir. Məhz bu baxımdan, Rəqabət Məcəlləsinin qəbul olunması bu gün ən aktual məsələlərdəndir».

Mütəxəssisin fikrincə, daxili bazarda sağlam rəqabət mühitinin təmin edilməsi əsas şərtdir. Əgər hansısa şirkətin bazarın 35 faizinə nəzarət etdiyi müəyyənləşərsə, bu, rəqabətin pozulması hesab olunur. Amma burada bir amil - istehsal sahəsində təbii inhisar məsələsi nəzərə alınacaq. Ölkədə elə bir biznes nümayəndəsi ola bilər ki, onun istehsal fəaliyyəti ilə digərləri məşğul olmur. Burada rəqabətin pozulması hallarından söhbət gedə bilməz və həmin biznes sektorunun bazarda payının artıq olması azad biznesin əlaməti sayıldığından, onun ölkə iqtisadiyyatının inkişafındakı rolunu azaltmağa yönələn hər hansı addım yolverilməzdir. Beləliklə, qəbul olunacaq Rəqabət Məcəlləsi dövlətin istehlak bazarında həyata keçirdiyi rəqabət siyasətinin hüquqi baxımdan müdafiəsinə, əsaslı antiinhisar qanunvericiliyinin formalaşmasına gətirib çıxaracaq.

Yeni məcəllənin qəbulu sayəsində haqsız rəqabət, təbii və süni inhisarçılığın aradan qaldırılması ilə yanaşı, ölkəmizdə azad rəqabət mühiti təmin olunacaq ki, bu da iqtisadi inkişaf, keyfiyyətli istehsalın artımı, işsizliyin aşağı düşməsi, neft sektorundan asılılığın aradan qaldırılması, biznes mühitinin liberallaşdırılması kimi bir çox məsələlərin həllində mühüm rol oynaya bilər. Rəqabət Məcəlləsi regionların iqtisadi potensialından tam və səmərəli istifadə etmək, sosial-iqtisadi mühitin yaxşılaşdırılması və balanslaşdırılmış iqtisadi inkişafın təmin edilməsi nöqteyi-nəzərindən mühüm əhəmiyyət daşıyır. Məcəllənin qəbulu ölkədə qiymət artımı ilə bağlı problemlərin də həllinə şərait yaradacaq. Çünki qiymət artımlarının böyük əksəriyyəti birbaşa süni xarakter daşıyır və inhisarçılıqla bağlıdır. Belə bir addımın atılması həm də beynəlxalq maliyyə təşkilatlarının və Avropa İttifaqının əsas tövsiyələri ilə səsləşir.

*Rəqabət Məcəlləsi regionların iqtisadi potensialından tam və səmərəli istifadə etmək, sosial-iqtisadi mühitin yaxşılaşdırılması və balanslaşdırılmış iqtisadi inkişafın təmin edilməsi nöqteyi-nəzərindənmühüm əhəmiyyət daşıyır*

İqtisadiyyat və Sənaye Nazirliyinin əməkdaşı Samir Dadaşovun sözlərinə görə, Rəqabət Məcəlləsinin layihəsi müvafiq nazirliklərin və mütəxəssislərin iştirakı ilə geniş müzakirə olunub, onların rəy və təklifləri nəzərə alınıb. Dünya Bankı və Avropa institutlarının ekspertləri layihəyə müsbət rəy veriblər. Hazırda sənəd üzərində bəzi hüquqi-texniki məsələlər yekunlaşmaqdadır və yaxın vaxtlarda hökumətə təqdim olunacaq.

**Elbrus CƏFƏRLİ**

# Biznes sektorunda aparılan islahatlar yüksək qiymətləndirilir

Berlində Ticarət və İnvestisiyalar üzrə Azərbaycan-Almaniya yüksək səviyyəli işçi qrupunun 5-ci iclası keçirilib. Azərbaycan İqtisadiyyat və Sənaye Nazirliyi (İSN)Aparatının rəhbəri Samir Vəliyevin və Almaniya Federal İqtisadi Məsələlər və Enerji Nazirliyinin xarici iqtisadi siyasət üzrə baş direktoru Ekard Fransın həmsədrlik etdikləri tədbirdə ölkələr arasında iqtisadi və ticarət əlaqələrinin mövcud vəziyyəti, investisiya, sənaye, kənd təsərrüfatı, təhsil və s. sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.

Qeyd edilib ki, bu gün Azərbaycanda Almaniyanın 183 şirkəti fəaliyyət göstərir və onların ölkəmizə yatırdığı sərmayələrin həcmi 475,5 milyon dollardır. Qeyri-neft sektoruna 345,2 milyon dollar sərmayə qoymuş Almaniya şirkətləri Azərbaycanda həyata keçirilən layihələrdə podratçı kimi də fəal iştirak edirlər. Bildirilib ki, ikitərəfli əməkdaşlığın gücləndirilməsi üçün yaxşı potensial mövcuddur. Son bir ildə iki ölkə arasında ticarət dövriyyəsi 21% artıb.

Almaniya Federal İqtisadi Məsələlər və Enerji Nazirliyinin nümayəndələrinə Azərbaycanda azad biznesin inkişafı ilə bağlı aparılan islahatlar və sahibkarlıq sahəsində yoxlamaların asanlaşdırılması barədə məlumat verilib. Lisenziyaların verilməsində «bir pəncərə» sisteminin tətbiqi və bu əməliyyatın «ASAN xidmət» mərkəzlərində həyata keçirilməsi, həmçinin tranzit yüklərin daşınması sahəsində vahid, çevik və şəffaf tarif siyasətinin tətbiqi məqsədilə Tranzit Yükdaşımalar üzrə Əlaqələndirmə Şurasının yaradılması və digər islahatlar alman iş adamları tərəfindən yüksək qiymətləndirilib.

# Vergiləri tam və vaxtında ödəmək öhdəliyi hamı üçün eynidir

Məşhur adların vergi qalmaqallarında hallanması, dünyanın tanıdığı «ulduzların» bəzən ciddi cəza almaları görünməmiş hadisə deyil. Məsələn, İtaliyanın ən məşhur kino «ulduzlarından» olan, dünyada qadın gözəlliyinin rəmzi hesab edilən Sofi Loren vergi ödəmədiyinə görə həbsdə olmuşdur. Başqa bir görkəmli italiyalı, məşhur müğənni Luçano Pavarotti bir neçə milyon dollar vergi ödəmədiyinə görə Belçikada tutulub saxlanılmışdır. Dahi rejissor və aktyor Çarli Çaplin də vergiyə görə ABŞ-da məsuliyyətə cəlb edilmişdir. Lap bu yaxınlarda əfsanəvi futbolçu Lionel Messinin adı ətrafında ciddi vergi iddialarının qaldırıldığının şahidi olduq... Dünyada sözsüz və müzakirəsiz qəbul edilən qayda belədir ki, kimliyindən asılı olmayaraq, hər kəs öz qanuni öhdəliklərini yerinə yetirməlidir.

***Müğənnilər gəlirlərinə uyğun vergi ödəmirlər***

Azərbaycanda da vergidən yayınan incəsənət xadimlərinin, şou-biznes nümayəndələrinin olması heç kəsə sirr deyil. Mediada vaxtaşırı olaraq müğənnilərin xidmət qiymətləri elan edilir və «qiymət siyahılarından» reklam vasitəsi kimi istifadə olunur. Siyahılara nəzər yetirdikdə məlum olur ki, müğənnilər toy şənliklərində yüksək qonorar alırlar. Haqlı bir sual meydana çıxır: incəsənəti təmsil edən adamlar nə üçün ödədikləri vergilər haqqında heç nə danışmırlar? Halbuki Avropa və Amerikanın əksər ölkələrində şou-biznes nümayəndələri dövlət büdcəsinə nə qədər vergi ödəməkləri ilə gündəmə gəlməyə üstünlük verirlər.

***Vergi öhdəliklərini yerinə yetirməyən şou-biznes nümayəndələrinin adları ictimaiyyətə açıqlanacaq***

*Təəssüflər olsun ki, hələ Azərbaycanda yüksək vergi mədəniyyətinin formalaşmasından danışmaq mümkün deyil və dövlət büdcəsinə vergi daxilolmalarının xeyli hissəsi vergi inzibatçılığı tədbirləri hesabına təmin olunur. Dünya təcrübəsi də göstərir ki, yüksək vergi mədəniyyətinin formalaşmasında tanınmış insanlar, o cümlədən incəsənət adamları, şou-biznes nümayəndələri çox böyük rol oynayırlar. Bizdə isə əksinə, bəzi tanınmışlara, o cümlədən şou-biznes nümayəndələrinə dəfələrlə izah etmək lazım gəlir ki, səngərdə Vətəni qoruyan, Dağlıq Qarabağı, digər işğal olunmuş ərazilərimizi düşmən tapdağından azad etməyə hazırlaşan əsgərimizin maddi-texniki təchizatı da, təhsil və səhiyyəmizin vəziyyəti də, ölkəmizin şəhər və kəndlərinin, yollarımızın abadlaşdırılması və bütün sosial layihələrin həyata keçirilmə səviyyəsi də məhz büdcəyə vergi daxilolmalarından*



***Əsas problem gəlirlərin düzgün rəsmiləşdirilməməsidir***

Görülən tədbirlərə baxmayaraq, şou-biznesi təmsil edən vergi ödəyiciləri arasında vergi öhdəliklərinə əməletmə səviyyəsi arzuolunan səviyyədə deyil. Cari ilin ötən doqquz ayının nəticələri təhlil olunarkən tanınmış şou-biznes nümayəndələrinin toylarda və digər tədbirlərdə çıxış etməklə müqabilində faktiki olaraq aldıqları və rəsmi bəyan etdikləri qonorarların məbləği arasında ciddi uyğunsuzluqlar aşkar olunub. Əsas problem isə bu təbəqədən olan vergi ödəyicilərinin əldə etdikləri gəlirləri toyların keçirildiyi şadlıq evlərində tətbiq olunan «Qeydiyyat kitabı»nda düzgün əks etdirməmələridir. Araşdırmalar göstərir ki, istər Bakı şəhərində, istərsə də respublikanın digər bölgələrində fəaliyyət göstərən istirahət, əyləncə, ictimai iaşə və digər obyektlərdə bir çox hallarda «Qeydiyyat kitabı»nın aparılmasına lazımi diqqət yetirilmir, çıxış edən müğənnilərin aldıqları qonorarların cüzi bir hissəsi «kitaba» salınır.

Heç kimə sirr deyil ki, vergi xidməti də daxil olmaqla, bütün dövlət orqanları sənət adamlarına həmişə hörmət, diqqət və qayğı ilə yanaşıblar. Təəssüf ki, bu münasibətin qarşılığı xüsusilə də vergilərin ödənilməsi sahəsində heç də adekvat deyildir. Bahalı avtomobil və mülklərini göstərməklə özlərini reklam edirən şou-biznes nümayəndələrinin il ərzində büdcəyə nə qədər vergi ödədiklərinə baxdıqda, bu, daha aşkar görünür. Halbuki, məsələn, toy sahibindən alınmış 1000 manata görə dövlət büdcəsinə cəmi 40 manat ödəmək onların hər birinin imkanı daxilindədir və bu, heç bir halda böyük vergi yükü hesab oluna bilməz.

Vergi Məcəlləsinin 67-ci maddəsinə uyğun olaraq, hazırda Vergilər Nazirliyi tərəfindən vergidən yayındırılmış məbləğlər kameral hesablama aparılmaqla büdcəyə bərpa olunur. Vergilər Nazirliyi bir daha xatırladır ki, kimliyindən asılı olmayaraq, vergiləri tam və vaxtında ödəmək öhdəliyi hamı üçün eynidir və heç kəs öz üzərinə düşən öhdəliyə görə məsuliyyətdən azad edilmir.

**Rəşad SADIQOV**

# «ASAN xidmət» mərkəzlərində ilk lisenziyalar verilib

Azərbaycan Respublikası Prezidentinin 19 oktyabr 2015-ci il tarixli «Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılığın (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında» fərmanına uyğun olaraq, İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən «ASAN xidmət» mərkəzlərində lisenziyaların verilməsinə başlanılıb.

Noyabrın 5-də İqtisadiyyat və Sənaye Nazirliyi (İSN) tərəfindən 5 saylı «ASAN xidmət» mərkəzində avtomobil nəqliyyatı ilə beynəlxalq yük daşımaları və taksi minik avtomobilləri ilə sərnişin daşımaları sahəsində fəaliyyət göstərən müəssisələrə ilk lisenziyalar verilib. Lisenziya almış sahibkarlar xüsusi razılığın (lisenziya) alınması üçün müraciətlərinə qısa müddətdə baxıldığını qeyd edib, prosesdən razılıqlarını bildirərək onlara göstərilən dəstəyə görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər. Vurğulayıblar ki, ölkə başçısının təşəbbüsü ilə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması, eləcə də gömrük və lisenziyalaşdırma sahələrində inzibati prosedurların sadələşdirilməsi barədə fərmanlar sahibkarlığın inkişafı baxımından inqilabi addımlar olmaqla, biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatların daha bir göstəricisidir.

Noyabrın 10-da avtomobil nəqliyyatı ilə ölkədaxili və beynəlxalq yük daşımaları, oczaçılıq fəaliyyəti, etil (yeyinti) spirtinin və alkoqollu içkilərin satışı, şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) müntəzəm sərnişin daşımaları sahələrində fəaliyyət göstərən sahibkarlara növbəti lisenziyalar verilib.

Qeyd edək ki, dövlət başçısının fərmanı ilə verilmiş tapşırıqların icrası məqsədilə qısa müddət ərzində zəruri tədbirlər görülüb, sahibkarlara yüksək səviyyədə xidmət göstərilməsi məqsədilə nazirliyin «ASAN xidmət» mərkəzlərində fəaliyyət göstərən əməkdaşlarına təlimlər keçilib, sahibkarlıq subyektləri məlumatlandırılıb. Noyabr ayının 2-dən müddəti bitən lisenziyaların yenisi ilə əvəz edilməsi üçün sənədlərin qəbulu prosesinə başlanılıb, lisenziyalaşdırılan fəaliyyətə yeni başlamaq istəyən sahibkarlara əlavə xərc çəkməmək üçün yeni siyahının təsdiq olunmasını gözləmək tövsiyə edilib.

# Avstriya və Azərbaycan arasında vergi sahəsində yaxşı əlaqələr qurulub



*Avstriyanın Federal Maliyyə Nazirliyinin Vergi administrasiyasının Federal Maliyyə Akademiyasının direktoru Karl Vappelin «Vergilər» qəzetinə müsahibəsi*

***- Cənab Vappel, Avstriya Respublikasının Federal Maliyyə Nazirliyi ilə Azərbaycanın Vergilər Nazirliyi arasında əməkdaşlığı necə qiymətləndirərdiniz?***

- Avstriya və Azərbaycan arasında iqtisadi sahədə, o cümlədən vergi sistemində əlaqələr son illər xeyli inkişaf edib. Tərəflər Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) çərçivəsində də sıx əməkdaşlıq edirlər. Dövlətlərimiz arasında investisiyaların təşviqi, gəlirlərə və əmlaka görə ikiqat vergitutmanın aradan qaldırılması, digər sahələr üzrə çox vacib sənədlərin imzalanması bu münasibətlərin daha da inkişaf etməsi ilə nəticələnib. Təəssüratlarıma əsasən deyə bilərəm ki, vergi inzibatçılığının təkmilləşdirilməsi, ödəyicilərə göstərilən xidmətlərin ən müasir tələblər səviyyəsində həyata keçirilməsi, elektron vergi hesab-fakturaları, elektron bəyannamələr, onlayn kargüzarlıq sistemlərinin tətbiqi və digər sahələrdə yaxşı nəticələr əldə olunub. Avstriya və Azərbaycanın vergi sistemlərinin oxşar və fərqli cəhətləri var. İdarəetmə və qiymətləndirmə sahəsində müəyyən fərqlər olsa da, hər iki ölkədə vergi siyasəti eyni ümumi strateji məqsədi: vergi yığımlarının könüllü ödənişini və ödəyicilərə yüksək səviyyəli xidmətlərin göstərilməsini əhatə edir. Prinsipcə, hər iki strukturun tətbiq etdiyi vergilər də eynidir.

Ölkələrimizin vergi orqanları Avropa İttifaqının «TAIEX» proqramı çərçivəsində də sıx əməkdaşlıq edirlər. Avstriya Vergi Administrasiyasının nümayəndələri layihə çərçivəsində Azərbaycanda olub və nazirlik daxilində fəaliyyətin qiymətləndirilməsi sistemini təhlil edib, öz tövsiyələrini verib. Hazırda Azərbaycanın vergi administrasiyası fəaliyyətin qiymətləndirilməsi sahəsində mütərəqqi beynəlxalq təcrübəni uğurla tətbiq edir.

***- Birgə əməkdaşlığın əsas istiqamətlərindən biri insan resurslarının idarə olunmasında təcrübə mübadiləsidir. Bu sahədə Avstriya Azərbaycana hansı köməyi göstərə bilər?***

- Bu gün Avropada vergi administrasiyalarının qarşısında duran əsas vəzifələrdən biri kadr potensialının və tədris-təlim prosesinin keyfiyyətinin yüksəldilməsidir. Vergi sistemi üçün hazırlanan kadrların davamlı olaraq zəruri biliklər, tətbiq olunan yeniliklər barədə məlumatlandırılması başlıca şərtdir. Dünya ölkələrinin bir çoxunun vergi administrasiyalarındakı problemlərin kökündə insan resurslarının inkişafının lazımi səviyyədə olmaması dayanır. Vergi sektoru dinamik, daim yeniləşən, müasir tələblərə uyğunlaşan, ölkənin iqtisadi inkişafından asılı olaraq təkmilləşən sahədir, ona görə də bu proseslərin fonunda kadrların müntəzəm şəkildə bilik və təcrübəsinin artırılması qaçılmazdır. Avstriya hökuməti bu məsələyə böyük diqqət yetirir və ölkəmizin vergi administrasiyasının tərkibində fəaliyyət göstərən Maliyyə Akademiyası insan resurslarının inkişafı sahəsində ixtisaslaşmış müəssisədir. Akademiyanın konsepsiyasının müəyyən olunmasında bir çox ölkələrdəki vergi tədrisi üzrə təlim modullarından yararlanmışıq. Bu sahədə Azərbaycanla yaxşı əməkdaşlıq qurulub və davam etdirilməkdədir. Vergi üzrə təlimçilərimiz bir neçə dəfə Vergilər Nazirliyinin Tədris Mərkəzində insan resurslarının idarə olunması sahəsində təlim kurslarında iştirak ediblər. Həmin təlimlər zamanı insan resurslarının inkişafı sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, ən qabaqcıl təlim metodlarının tətbiqi, təlimçilər komandasının yaradılması imkanları da diqqət mərkəzində olub.

***- Azərbaycanın vergi sistemində tədrisin keyfiyyəti barədə nə deyə bilərsiniz?***

- Müşahidələrimizə əsasən deyə bilərəm ki, Tədris Mərkəzi güclü infrastruktur imkanlarına, avadanlıqlara, beynəlxalq standartlara cavab verən innovativ vasitələrə malikdir. Bu gün IOTA-nın yüksək qiymət verdiyi ən müasir və tədris üçün bütün tələblərə cavab verən mərkəzləşdirilmiş üç böyük elm və təhsil müəssisəsindən biri Azərbaycanın Vergilər Nazirliyinin Tədris Mərkəzidir. Burada vergi orqanı əməkdaşlarının tədrisi və ixtisaslarının artırılması, işgüzar dairələrin iştirakı ilə faydalı müzakirələrin aparılması, təlimlərin ən yüksək səviyyədə keçirilməsi üçün hər bir şərait var. Müəssisədəki şərait təlimlərin interaktivliyini təmin etməyə, onlayn tədris prosesini artırmağa imkan verir. İnanıram ki, Tədris Mərkəzi yalnız Azərbaycanın deyil, regionun digər ölkələrinin də vergi administrasiyaları üçün təcrübə və bilik mərkəzi olacaqdır.

***- Avstriya mütəxəssisləri Azərbaycanda insan resurslarının idarə olunması ilə bağlı hansı tövsiyələrini verə bilər?***

- Azərbaycanda vergi sisteminin yüksək inkişafı təlim prosesinə yeni yanaşma tələb edir. Treninqlərin və digər interaktiv tədris formalarının həm kəmiyyət, həm də keyfiyyət baxımından artırılması vacibdir. Təlimlərdə dinləyicilər üçün liderlik, motivasiya, qiymətləndirmə, müstəqil düşünmək və qərar qəbul etmək bacarığı, riskləri idarə etmək qabiliyyəti kimi meyarlara xüsusi diqqət yetirmək lazımdır. Tədris prosesində interaktivliyin rolunu artırmaq, müasir tədris resurslarından istifadə etmək, videokursların, onlayn tədrisin gücləndirilməsi barədə müzakirələr apardıq və bu istiqamətdə əməkdaşlıq haqqında razılıq əldə etdik. Hesab edirəm ki, vergi işçiləri ilə yanaşı, ödəyicilərin, sahibkarların da təlim və tədris prosesinə cəlb olunması genişləndirilməlidir.

***- Tərəflər e-xidmətlər və müasir İKT-nin tətbiqi sahəsində hansı birgə əməkdaşlıq fəaliyyətləri planlaşdırırlar?***

- Avstriyada vergi administrasiyası daim yeniləşir, vergi inzibatçılığının gücləndirilməsi, vergilərin və rüsumların yığılması, eləcə də vergi ödəyicilərinə xidmət, vergi ödəyicilərinin qeydə alınması, ödəyicilərə hüquqi yardım və digər istiqamətlərdə təkmilləşdirmələr aparılır. Vergi ödəyicilərinin hüquqlarının qorunması və onların məsuliyyətinə aid təlimatlar işlənib hazırlanır. Eləcə də vergilərin yığılması və əvəzləşdirilməsi, vergi borclarının ödənilməsinin təmin edilməsi, vergi güzəştlərinin təyinatına yenidən baxılması kimi məsələlər üzrə islahatlar aparılır. Elektron auditin tətbiqi imkanlarının genişləndirilməsi hazırda vergi sisteminin aktual məsələlərindən biri kimi diqqətdədir.

Son illər e-bəyannamə sisteminin tətbiqinə böyük üstünlük verilir. Ümumiyyətlə, yeni e-xidmətlər əsas etibarilə vergitutma bazasının genişləndirilməsinə və vergidənyayınmanın azalmasına təkan verməlidir. Vergi bəyannamələrinin böyük hissəsi elektron formada təqdim edilir. Azərbaycanda da həmin sahələrdə yeniliklər nəzərə çarpır. Burada e-bəyannamə ilə bağlı vəziyyət daha yaxşıdır. Vergi sahəsində tətbiq edilən innovasiyalar xüsusilə təqdir olunmalıdır.

***Müsahibəni hazırladı:***
**Elbrus CƏFƏRLİ**

# Güzəştli kreditlər sahibkarlığın inkişafına təkan verir

Sahibkarlığa Kömək Milli Fondu ölkədə xüsusilə kiçik və orta sahibkarlığın inkişafına və əhalinin işgüzarlıq fəaliyyətinin artırılmasına kömək göstərmək, onlara maliyyə dəstəyi vermək məqsədilə fəaliyyət göstərir. Fond öz vəsaitləri hesabına ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətləri üzrə sahibkarlıq subyektlərinin investisiya layihələrini qanunvericiliyə uyğun maliyyələşdirir, sahibkarlığın inkişafına yönəldilmiş dövlət proqramlarından irəli gələn investisiya layihələrinin maliyyələşdirilməsinə üstünlük verir, verilən kreditlərin təyinatına uyğun istifadə olunmasına nəzarət etmək məqsədilə monitorinqlərin keçirilməsi qaydalarını müəyyən edir. Sahibkarlığın inkişafında böyük rolu olan güzəştli kreditlərin əldə olunması sahibkarların müvəkkil kredit təşkilatlarına müraciəti əsasında verilir. Verilən kreditlərin təyinatı üzrə istifadə edilməməsi aşkarlandıqda isə 10 gün ərzində qaytarılması tələb edilir.

Sahibkarları məlumatlandırmaq məqsədilə fond mütəmadi olaraq regionlarda və Bakı şəhərinin qəsəbələrində tədbirlər keçirir. Sahibkarlığın inkişafına dövlət dəstəyini gücləndirmək məqsədilə maarifləndirici treninqlər təşkil olunur, nümunəvi investisiya layihələrinin təqdimatı keçirilir. Sahibkarlara prioritet istiqamətlərə uyğun nümunəvi layihələr təqdim olunur, həmçinin yerli icra hakimiyyəti orqanlarının nümayəndələri və sahibkarlarla mövcud iqtisadi potensialdan daha səmərəli istifadə edilməsi məqsədi ilə müzakirələr aparılır.

Fondun fəaliyyəti ilə bağlı 2015-ci ilin 9 ayı üzrə göstəricilər belədir: fondun vəsaitləri hesabına 4249 layihəyə 1.589.471 manat kredit verilib. Verilən kreditlərin 18 milyon 804,2 milyon manatı müxtəlif sənaye məhsullarının istehsalı və emalına, 108 min 296,9 min manatı kənd təsərrüfatı məhsullarının istehsalına, 30 milyon 790 min manatı xidmət sahələrinin inkişafına, 1 milyon 56 min manatı isə kənd təsərrüfatı məhsullarının emalına yönəldilib. Bu dövr ərzində müxtəlif sənaye məhsullarının istehsalı və emalı sahəsi üzrə 109 layihə, kənd təsərrüfatı məhsullarının istehsalına 4126 layihə, kənd təsərrüfatı məhsullarının emalına 3 layihə, xidmət sahələrinin inkişafı üzrə 11 layihə maliyyələşdirilib.

Kreditlərin 45 milyon 716,1 min manatını kiçik həcmli kreditlər, 5 milyon 83 min manatını orta həcmli kreditlər və 108 milyon 148 min manatını böyük həcmli kreditlər təşkil edib. Kiçik həcmli kreditlər üzrə 4187 layihə, orta həcmli kreditlər üzrə 25 layihə, böyük həcmli kreditlər üzrə 37 layihə maliyyələşdirilib. 9 ay ərzində verilən güzəştli kreditlər 9882 yeni iş yerinin yaradılmasına imkan yaradır.




**A.NƏBİYEVA**

# «Elektron hökumət» portalına giriş sadələşdirilir

Dövlət qurumlarının elektron xidmətlərinin «bir pəncərə» prinsipi ilə tətbiq edilən «Elektron hökumət» portalından istifadə etmək üçün e-imza kartı, «ASAN imza», eləcə də vətəndaşa verilmiş kod, mobil autentifikasiya sertifikatı və smartfon ilə daxil olmaq imkanları yaradılmışdır. Bu günlərdə isə portalın operatoru olan Məlumat Hesablama Mərkəzi tərəfindən yeni autentifikasiya vasitəsi istifadəyə verilib. Vətəndaşların portaldan istifadəsini asanlaşdırmaq və sadələşdirmək məqsədilə tətbiq olunan «E-gov identity» identifikasiya vasitəsi sistemə giriş üçün vətəndaşın mobil telefon nömrəsi üzrə FİN-ni tanıma rolunu oynayır.

«E-gov identity»ni aktivləşdirmək üçün, sadəcə, «Elektron hökumət» portalına daxil olmaq və nəzərdə tutulmuş xidmətdən yararlanmaq kifayətdir. Bunun üçün portala giriş etmək, şəxsiyyət vəsiqəsi üzrə qeydiyyatda olan mobil telefon nömrəsini aktivasiya vasitəsilə xidmətə qoşmaq lazımdır. Qeyd edək ki, vətəndaşın adına təyin edilmiş mobil telefon nömrəsinə yalnız bir ədəd fərdi identifikasiya nömrəsi qoşmaq mümkündür.




Yeni sistemin üstünlüyü budur ki, vətəndaşlar heç bir fiziki müraciət etmədən elektron formada mobil identifikasiya vasitəsinə qoşula biləcək, sonradan istər «E-hökumət» portalına, istərsə də digər xidmətin inteqrasiya edilən portallarına daxil ola biləcəklər. Portala daxil olan vətəndaş hazırlanmış interfeysdən istifadə edərək adına olan mobil telefon nömrəsini FİN-ə qoşaraq prosesi tamamlaya biləcək. Təyin olunmuş identifikasiya kodu əldə ediləndən sonra vətəndaş «e-gov identity» vasitəsilə identifikasiya olunan bütün sistemlərdən rahat istifadə edə biləcək. Yeni sistemin istifadəyə verilməsinin «Elektron hökumət» portalına girişi daha da sadələşdirəcəyi və elektron xidmətlərdən istifadə edənlərin sayının artımına təsir göstərəcəyi gözlənilir.

Xatırladaq ki, Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş 455 elektron xidmətdən 340-ı artıq «Elektron hökumət» portalına inteqrasiya olunub.

**AYTƏN**

# Gənclər peşələrə istiqamətləndirilir

Əmək bazarının tənzimlənməsi, işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, onların məşğulluğunun təmin edilməsi istiqamətində müxtəlif tədbirlər həyata keçirilməkdədir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Xidməti vətəndaşlara münasib iş yerlərinin axtarılmasında, işəgötürənlərə lazımi kadrların seçilməsində yardım göstərir, gənclərin peşə seçiminə kömək məqsədilə peşəyönümünün təşkili həyata keçirilir, zəruri hallarda işsiz statusu verilir, işsizlik müavinəti təyin olunur və ödənilir.

ƏƏSMN-in məlumatına görə, cari ilin 9 ayı ərzində xidmət tərəfindən ümumilikdə 22.470 nəfər işaxtaran və işsiz vətəndaş münasib işlərlə təmin olunub. Məşğulluq orqanlarında qeydiyyata alınan və xüsusi peşə hazırlığı olmayan işaxtaran və işsiz şəxslərdən 1200 nəfərə yaxını idarə, müəssisə və təşkilatlarla bağlanmış müqavilələr əsasında ödənişli ictimai işlərə cəlb edilib. Xidmətin Bakı, Sumqayıt, Gəncə, Mingəçevir şəhərlərindəki əmək birjaları vasitəsilə 3089 nəfər müvəqqəti xarakterli işlərə göndərilib. Bununla yanaşı, 9 aylıq dövrdə 2878 nəfərə işsiz statusu verilib, 3142 nəfərə isə işsizlik müavinəti təyin edilib.

Peşə və ixtisası olmadığından münasib iş yeri seçməkdə çətinlik çəkən, yaxud peşə vərdişlərinə uyğun gələn iş olmadığı üçün öz peşəsini dəyişməsi zəruri olan 2776 nəfər peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb olunub. Gənclərin düzgün ixtisas seçimi aparmalarına kömək məqsədilə peşəyönümü tədbirləri davam etdirilib və əsasən orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərindən ibarət 72.857 nəfər vətəndaşa peşəyönümü məsləhətləri verilib.

İlin əvvəlindən ölkəmizin bölgələrində keçirilən 54 əmək yarmarkasında 4119 nəfər işsiz və işaxtaran vətəndaşa boş iş yerlərinə göndərişlər verilib, onlardan 3641 nəfəri münasib iş yerləri ilə təmin olunublar. Bu tədbirlərdə 440 nəfər peşə hazırlığı kurslarına, 229 nəfər haqqı ödənilən ictimai işlərə cəlb edilib. Tələbə və məzunların əmək bazarına inteqrasiyası məqsədilə Bakı, Gəncə, Sumqayıt, Lənkəran şəhərlərindəki bir sıra ali təhsil müəssisələrində «Karyerada ilk addım» devizi altında keçirilən aktiv məşğulluq tədbirlərində 1477 nəfər məzun və tələbənin şəxsi məlumatları işəgötürənlər tərəfindən qəbul olunub, 254 nəfərə boş iş yerlərinə göndəriş verilib, 58 nəfər əlavə təhsil kurslarına cəlb olunmaları üçün qeydiyyata alınıb.

2015-ci ilin oktyabr ayında vətəndaş müraciətləri ilə əlaqədar qanunvericiliyə uyğun şəkildə görülmüş tədbirlər nəticəsində işəgötürənlər 1.458,132 manat məbləğində gecikdirilmiş sosial xarakterli ödənişləri işçilərə ödəyib. Bu məbləğin 75,2 faizini gecikdirilmiş əməkhaqları, qalan hissəsini isə işəgötürənlərin ödəməli olduqları sosial müavinət və kompensasiyalar, zərərə görə ödənclər təşkil edib.

# Büdcə sektorunda yenilik

## *FARABI sisteminə artıq 102 təşkilat qoşulub*

Azərbaycan Respublikası Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» 23 may 2011-ci il tarixli 429 nömrəli fərmanına əsasən modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması sahəsində işlər davam etdirilir.

Bu işlərin bir hissəsi olaraq «Büdcədən maliyyələşən təşkilatlar üçün Maliyyə və Mühasibatlıq Hesabatları» avtomatlaşdırılmış informasiya sisteminin (FARABI) tətbiqinin ikinci mərhələsi başa çatıb. Maliyyə Nazirliyi tərəfindən həyata keçirilən və Dünya Bankı tərəfindən dəstəklənən bu layihənin məqsədi büdcə təşkilatlarında və büdcədən maliyyələşən təşkilatlarda maliyyə və mühasibat uçotu hesabatlarının mərkəzləşdirilmiş qaydada aparılmasıdır. Sistem Dünya Bankının «Korporativ və büdcə sektorunda hesabatlılıq» layihəsi çərçivəsində yaradılıb.

Layihə üzrə sənədləşmə Milli Mühasibat Uçotu Standartları (MMUS) və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (IFRS) əsasında aparılır. 2012-2015-ci illərdə layihənin iki mərhələsi çərçivəsində sistemə 75 büdcə təşkilatı və 24 universitet qoşulub. Layihə çərçivəsində Müəssisə resurslarının idarəetmə sistemi (ERP) yaradılıb və müvəffəqiyyətlə 102 təşkilatda tətbiq edilib. Sistemdə Vergilər Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu və Maliyyə Nazirliyi ilə birbaşa inteqrasiya dəstəklənir.

Səhiyyə Nazirliyinin maliyyə-iqtisad şöbəsinin baş məsləhətçisi Rəna Camalovanın sözlərinə görə, tətbiq olunan proqram təminatı Azərbaycanda ilk olaraq milli mühasibat standartlarını dəstəkləyir. Müxtəlif modullar vasitəsilə, o cümlədən əməkhaqlarının hesablanması və ödənişlər daha sürətlə və avtomatlaşdırılmış formatda həyata keçirilir.

Texniki Universitetin baş mühasibi Əfsər Dadaşovun sözlərinə görə, avtomatlaşdırılmış hesablamalar mühasibatda vaxt və insan resurslarının qənaət olunmasını təmin edir. Əgər əvvəllər universitetdə əməkhaqlarının hesablanması ilə 5-6 işçi məşğul olurdusa, indi bu əməliyyatı cəmi 2 mühasib həyata keçirir. Əgər əvvəllər tələbələrin təqaüdlərinin hesablanmasına 10 günədək vaxt sərf edilirdisə, indi bunun üçün cəmi 2-3 iş günü tələb olunur.

Proqramın digər bir üstünlüyü də xəstəlik vərəqəsinə görə müavinətlərin hesablanmasıdır. Bu proses tam avtomatlaşdırıldığı üçün hər hesablama üzrə 2-3 saat vaxt sərf etmək zərurəti yoxdur.

Sistem İKT sahəsində istifadə olunan ən müasir «bulud texnologiyası» əsasında qurulub. Proqram təminatının funksionallığı «Müəssisə resurslarının idarə edilməsi sistemi» prinsiplərinə müvafiqdir və müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin avtomatlaşdırılmasına və idarə edilməsinə imkan verir. Yaradılan sistemin yaxın vaxtlarda Xəzinə İnformasiya İdarəetmə sistemi ilə də inteqrasiyası istiqamətində fəaliyyət davam etdirilir. Sistemin şəbəkəsi və istifadəçilərin «Verilənlər mərkəzi» ilə bağlantısı respublikada olan ən təhlükəsiz şəbəkə üzərində qurulur. Məlumatların təhlükəsiz ötürülməsi üçün elektron açar və elektron imzanın tətbiqi də mümkündür.

Sistemdə hər bir istifadəçinin səlahiyyətləri və məlumatlarının məxfiliyi qorunur. Proqramın geniş analitik imkanlara malik olması istifadəçilərə mövcud məlumatlar üzərindən müxtəlif analitik hesabatlar hazırlamağa şərait yaradır.

**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycanın vergi sistemində mütərəqqi yeniliklər tətbiq olunacaq

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında Vergilər Nazirliyinə aid çoxşaxəli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Bu istiqamətdə islahatların aparılması üçün nazirlik tərəfindən «Vergi sisteminin inkişafı üzrə strateji plan» təsdiq edilib və bu plan çərçivəsində 2020-ci ilədək daha mütərəqqi, mükəmməl və beynəlxalq standartlara cavab verən vergi sistemi formalaşdırılacaq.

Azərbaycanın qlobal dünya iqtisadiyyatına inteqrasiyası onun vergi qanunvericiliyinin Avropa İttifaqı qanunvericiliyinə və Ümumdünya Ticarət Təşkilatının (ÜTT) tələblərinə uyğunlaşdırılmasını tələb edir. Bu məqsədlə aksizli malların idxalına və daxildə istehsalına tətbiq olunan aksiz dərəcələrinin eyniləşdirilməsi, ölkənin vergi qanunvericiliyi bazasının təkmilləşdirilməsi davamlı xarakter alacaq.

***Vergi mədəniyyətinin yüksəldilməsi vacib şərtdir***

Qeyri-neft sektorunun inkişafı və onun ixrac potensialının gücləndirilməsinə nail olmaq üçün bu sahələrdə tətbiq olunan vergi güzəştlərinin monitorinqinin aparılması, onların bir qisminin ləğv edilməsi, yenilərinin tətbiq olunması zərurətini meydana çıxarır. Burada əsas amil həmin istiqamətlərin düzgün müəyyənləşdirilməsidir. Təkmilləşdirmənin başlıca istiqaməti vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq münasibətlərinin yaradılmasıdır. Bundan əlavə, özəl vergi məsləhətçiləri, vergi ombudsmanı institutlarının yaradılması, vergi ödəyicilərinə xidmət mərkəzlərində göstərilən xidmətlərin spektrinin genişləndirilməsi və xidmət səviyyəsinin artırılması, ünvanlı xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və digər məqsədlərin həyata keçirilməsi də vacib şərtlərdəndir. Əhalinin vergi mədəniyyətinin yüksəldilməsi, gələcəyin intizamlı, savadlı vergi ödəyicilərinin formalaşdırılması işinin səmərəliliyinin artırılması üçün bu sahədə beynəlxalq təcrübənin araşdırılması, məlumatlandırma vasitələrinin, xüsusi dərslik və tədris vəsaitlərinin hazırlanması zəruridir. Məhz yüksək vergi mədəniyyəti şəraitində vergi yığımı, dövlət büdcəsinin gəlirləri artır. Strateji plan çərçivəsində həyata keçirilən islahatlara informasiya dəstəyinin gücləndirilməsi, təbliğat-təşviqat işinin təşkili üçün kütləvi informasiya vasitələrinin fəaliyyətindən də maksimum yararlanmaq nəzərdə tutulub.

***Elektron vasitələrdən daha səmərəli istifadə olunacaq***

Müasir nəzarət metodlarının tətbiqi ilə əlaqədar strateji məqsədə nail olmaq üçün elektron auditin aparılması üzrə qanunvericilik bazasının yaradılması və vergi ödəyicilərində mühasibat uçotunun elektron qaydada aparılmasına keçidin sürətləndirilməsi, audit sahəsində çalışan əməkdaşlara iş yerlərində ayrı-ayrı funksional sahələr üzrə e-audit, e-mühasibat və informasiya texnologiyaları sahəsində təlim proqramlarının təşkili nəzərdə tutulur. Qabaqcıl beynəlxalq təcrübələr öyrənilərək «Elektron cinayət işi» konsepsiyası hazırlanacaq və tətbiqi ilə bağlı mövcud qanunvericiliyə əlavə və dəyişikliklər ediləcək. Bununla yanaşı, vergidən yayındırılan dövriyyələrin aşkar olunması ilə əlaqədar mənəvi cəhətdən köhnəlmiş nəzarət-kassa aparatlarının daha müasir avadanlıqlarla əvəz edilməsi üzrə təkliflərin verilməsi, əhalinin nağd ödənişlər zamanı çek tələb etmələri üçün stimullaşdırıcı tədbirlərin (lotereyalar, bonus kampaniyaları və s.) həyata keçirilməsi planlaşdırılır.

Vergi potensialının qiymətləndirilməsi və proqnozlaşdırılması modelləri sisteminin tətbiqi, onun müvafiq proqram paketi ilə təmin olunması, vergi orqanları tərəfindən nəzarət edilməsi nisbətən çətin olan peşələr üzrə (ev təmiri ilə məşğul olan ustalar, bağbanlar, dayələr, ev qulluqçuları və digər oxşar peşələr), habelə digər sahələrdə vergidən yayınma hallarının minimuma çatdırılması üçün ictimai nəzarətin gücləndirilməsi üçün qanunvericilikdə dəyişikliklərin edilməsi istisna olunmur.

Vergi sistemində tədris və təlim prosesinin yüksəldilməsi məqsədilə vergi orqanları əməkdaşlarının peşə hazırlığının təkmilləşdirilməsi və ixtisaslarının artırılması prosesində müasir informasiya texnologiyalarından istifadə etməklə beynəlxalq təlim metodlarının tətbiqi mütəmadi olaraq yerli və beynəlxalq ekspertlərin cəlb olunmasını tələb edir. Vergi sisteminin inkişafı və hüquqi təminatına dair aktual elmi-tədqiqat və araşdırma işlərinin genişləndirilməsi, Vergilər Nazirliyinin Tədris Mərkəzinin bazasında Regional Təlim və Tədqiqat Mərkəzinin yaradılması, əməkdaşların peşə hazırlığı prosesində elektron təhsil (e-learning) sisteminin tətbiqi istiqamətində də işlər davam etdiriləcəkdir.

***Vergi borclarının alınması mexanizmlərində dəyişikliklər***

Vergi borclarının alınmasının yeni üsullarının müəyyən edilməsi istiqamətində beynəlxalq təcrübə öyrəniləcək, kiçik məbləğli vergi borclarının büdcə daxilolmaları baxımından qiymətləndirilərək səmərəli idarə edilməsi mexanizmlərinin tətbiqi üçün təkliflər hazırlanacaq. Beynəlxalq praktikada qəbul olunan əməletmə modelinə uyğun vergi öhdəliklərinin icra edilməsi (tax compliance) vəziyyətinin qiymətləndirilməsi və könüllü ödəmənin təşviqi üçün təkliflərin verilməsi, siyahıya alınmış əmlakların elektron hərraclar vasitəsilə satışının təşkili üçün aidiyyəti dövlət orqanlarına təkliflərin təqdim edilməsi, dövlət büdcəsinə borcu olan şəxslərin (o cümlədən vergi ödəyicilərinin) borclarının əlaqələndirilməsi məqsədilə borclar üzrə vahid portalın yaradılması təmin olunacaq.

**Rəşad SADIQOV**

*Əhalinin vergi mədəniyyətinin yüksəldilməsi, gələcəyin intizamlı, savadlı vergi ödəyicilərinin formalaşdırılması işinin səmərəliliyinin artırılması üçün bu sahədə beynəlxalq təcrübənin araşdırılması, məlumatlandırma vasitələrinin, xüsusi dərslik və tədris vəsaitlərinin hazırlanması zəruridir. Məhz yüksək vergi mədəniyyəti şəraitində vergi yığımı, dövlət büdcəsinin gəlirləri artır*

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Dövlət büdcəsinə ödənilməli olan vergiləri yayındıran sahibkarlara qarşı Vergilər Nazirliyi tərəfindən həyata keçirilən təsirli mübarizə tədbirlərinə və bu istiqamətdə geniş şəkildə aparılan təbliğat-maarifləndirmə işlərinə baxmayaraq, bəzi sahibkarlar hələ də bundan dərs götürmürlər. Bu cür üzdəniraq iş adamları anlamaq istəmirlər ki, vergidən yayınmaq sonda ağır nəticələrə səbəb olur, bir sıra hallarda isə sahibkarın məhkəmə salonuna qədər gəlməsi ilə yekunlaşır. Bu isə onlara maddi və mənəvi zərbə vurmaqla bərabər, cəmiyyətdəki nüfuzuna da kölgə salır, uzun illər ağır zəhmət bahasına qurduğu biznesini itirir, adı cinayətlərdə hallanır.

Müxtəlif sənaye, tikinti və məişət mallarının satışı, təmir-tikinti fəaliyyəti ilə məşğul olan «Viktoire» MMC-nin direktoru Azay Bəylərovun törətdiyi vergi qanunsuzluqları da məhz sonda onu cinayətkar kürsüsünə gətirib çıxarıb. A.Bəylərov müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin uçotunun aparılması vəzifəsini öz üzərinə götürərək vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsi üzrə əməliyyatları təkbaşına həyata keçirib. Bu zaman o, vergi orqanlarına təqdim olunan bəyannamələrin gəlirlər və xərclər bölmələrini tamamilə saxlaşdırıb və nəticədə MMC-nin 15.948,76 manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırıb.

Faktla bağlı Vergilər Nazirliyinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilmiş materiallar əsasında A.Bəylərovun Cinayət Məcəlləsinin 213.1-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi başlanılıb, barəsində həbs qətimkan tədbiri seçilib.

İş üzrə şahid qismində dindirilmiş bir sıra müəssisələrin nümayəndələri «Viktoire» MMC ilə əlaqələrinin olduğunu bildirərək, aparılan sövdələşmələr üzrə müvafiq sənədləri və hesablaşma qaimələrini istintaqa təqdim ediblər. Təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilən A.Bəylərov CM-in 213.1-ci maddəsi ilə elan olunmuş ittihamda özünü təqsirli bilərək vergi ödənişlərindən mənimsədiyi vəsaitləri şəxsi məqsədləri üçün istifadə etdiyini deyib.

Şahid ifadələri, alqı-satqı müqavilələri və bank köçürmələri, çeklər, mühasibat sənədləri, məhkəmə-mühasibat ekspertizasının rəyləri və digər dəlillər əsasında onun törətdiyi cinayət əməlləri tam sübuta yetirilib. Bununla da A.Bəylərov Yasamal Rayon Məhkəməsinin hökmü ilə 1 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

**ELBRUS**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKI 2015-Cİ İL ÜÇÜN AZƏRBAYCANDA ÜDM-İN ARTIMINI **3%** SƏVİYYƏSİNDƏ PROQNOZLAŞDIRIB.
- LİSENZİYALARIN YENİLƏNMƏSİ İLƏ BAĞLI SAHİBKARLARDAN **600-DƏK** MÜRACİƏT DAXİL OLUB.
- VƏTƏNDAŞLARIN ELEKTRON XİDMƏTLƏRƏ ÇIXIŞ İMKANLARININ ARTIRILMASI ÜÇÜN REGİONLARDA FƏALİYYƏT GÖSTƏRƏN **45** POÇT ŞÖBƏSİNDƏ ELEKTRON KÖŞKLƏR QURULUB.
- SON 5 İLDƏ ÖLKƏNİN İNFORMASİYA TEXNOLOGİYALARI SEKTORU TƏQRİBƏN **2,2** DƏFƏ ARTIB.
- BU İLİN OKTYABRINDA CEYHAN LİMANINDAN **2 MİLYON 285 MİN 420 TON** AZƏRBAYCAN NEFTİ DÜNYA BAZARINA YOLA SALINIB.

# Vergilər Nazirliyindən daha bir yenilik

Elektron xidmətlər sahəsində tətbiq etdiyi yeniliklərlə seçilən Vergilər Nazirliyi istifadəçilərin marağına səbəb ola biləcək daha bir yenilik edib. Nazirliyin rəsmi internet səhifəsinin (taxes.gov.az) Android platformalı smartfon və planşetlər üçün əlavəsini (application) artıq Google Play Marketdən yükləmək mümkündür. Smartfon və planşet sahibləri bu əlavəni öz telefonlarına yükləməklə nazirlik haqqında, qanunvericilik, bəyannamələr, elektron xidmətlər, beynəlxalq əlaqələr və digər bölmələrlə tanış ola bilərlər. Vergilər Nazirliyinin bu əlavəsi sayəsində onlayn xidmətlər mobil rabitə istifadəçiləri üçün daha yaxın olacaq, onlar nazirlik ilə daha rahat və çevik əlaqə saxlaya biləcək.

Mobil əlavələrin yüklənməsi pulsuz həyata keçirilir və gələcəkdə daha çox istifadə edilən digər xidmətlərin də mobil versiyaya əlavə olunması planlaşdırılır.

Qeyd edək ki, yaxın günlərdə iOS versiyalı əlavə də istifadəçilərin ixtiyarına veriləcək. Android üçün əlavəni Play Market-dən yükləyə bilərsiniz: www.taxes.gov.az/android




# MKR-dən istifadəyə maraq artır

Mərkəzləşdirilmiş Kredit Reyestrində (MKR) ölkənin bank sektorunda kredit öhdəliyi olan fiziki və hüquqi şəxslərin kreditləri haqqında məlumatlar toplanılır. MKR bankların və bank olmayan kredit təşkilatlarının (BOKT) cari və potensial borcalanlarının ödəmə qabiliyyəti haqqında məlumatlar almaq, borcalanların icra intizamını və borcalma nüfuzunun qorunmasını təşviq etmək, bankların və BOKT-lərin kredit risklərini azaltmaq məqsədi daşıyır.

Reyestrdə borcalanların həm aktiv, həm də tam ödənilmiş kreditləri haqqında məlumatlar saxlanılır. Burada borcalanın eyniləşdirmə məlumatları, kredit və kreditin təminatı haqqında məlumatlar ayda bir dəfə, hər ayın ilk 4 iş günü ərzində yenilənir. Yeni verilmiş kreditlər barədə məlumat isə 2 iş günü ərzində MKR-ə göndərilir. Borcalanlar haqqında toplanan və əldə edilən məlumatlara bank sirri rejimi tətbiq olunur. Sorğular banklar və BOKT-lər tərəfindən cari borcalanlar haqqında sorğu edilən şəxsin razılığı tələb olunmadan, potensial borcalanları və zaminlər haqqında isə yalnız barəsində sorğu edilən şəxsin imzaladığı yazılı razılıq əsasında həyata keçirilir. Banklar və BOKT-lər MKR-dən məlumatları real vaxt rejimində elektron formada, borcalanlar isə sorğu əsasında əldə edə bilirlər. Banklar və BOKT-lər istisna olmaqla, digər şəxslər MKR-dən məlumatları elektron imza ilə təsdiq olunmuş elektron formada müraciət etməklə, şəxsən və ya vəkalətli nümayəndəsi vasitəsilə müraciət etməklə, notariat qaydasında təsdiq olunmuş distant sorğu ilə əldə edə bilirlər.

Mərkəzi Bankın məlumatına görə, bu ilin 9 ayı ərzində MKR-dən 44 bank və 41 BOKT istifadə etmiş, reyestrdə ümumilikdə 2.353.885 sorğu həyata keçirilmişdir.




**AYTƏN**

# Vergi borcuna etinasız yanaşmaq arzuolunmaz sonluqla nəticələnir

Azərbaycan Respublikasının Vergi Məcəlləsində, eləcə də digər qanunvericilik aktlarında vergi ödəyiciləri qarşısında konkret vəzifələr müəyyənləşdirilmişdir. Bu vəzifələrə daxildir:

- vergi ödəyicisinin eyniləşdirmə nömrəsini (VÖEN) almaq;
- qanunla müəyyən edilmiş vergiləri ödəmək;
- gəlirlərinin (xərclərinin) və vergitutma obyektlərinin uçotunu aparmaq;
- vergi bəyannamələrini (hesabatını) təqdim etmək;
- vergi orqanlarının qanuni tələblərini icra etmək, habelə vergi orqanlarının vəzifəli şəxslərinin qanuni fəaliyyətinin icra edilməsinə maneçilik törətməmək;
- vergi orqanlarına və onların vəzifəli şəxslərinə zəruri olan məlumatları və sənədləri təqdim etmək;
- qanunvericiliklə müəyyən edilmiş müddətdə mühasibat sənədlərinin və vergilərin hesablanması və ödənilməsi üçün zəruri olan digər sənədlərin, habelə alınan gəliri (hüquqi şəxslər üçün çəkilən xərcləri də) və ödənilən (tutulan) vergiləri təsdiq edən sənədlərin saxlanılmasını təmin etmək;
- bəzi fəaliyyət növləri istisna olmaqla, nağd pul hesablaşmalarını nəzarət-kassa aparatları vasitəsilə həyata keçirmək;
- nağd pul hesablaşmaları aparılan zaman alıcıya çek, qəbz, bank çıxarışları və digər ciddi hesabat blanklarını təqdim etmək və həmin çek, bank çıxarışları və ya ciddi hesabat blanklarında qanunvericiliklə müəyyən edilmiş məlumatların əks etdirilməsini təmin etmək və bu kimi digər vəzifələri yerinə yetirmək.

Vergi ödəyiciləri bu vəzifələrin öhdəsindən layiqincə gəlmədiyi təqdirdə, ortaya çıxan vergi borclarına görə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb oluna bilər.

*Azərbaycan Respublikası Cinayət Məcəlləsində qeyd olunub ki, xeyli miqdarda (2000 manatdan 50.000 manatadək olan məbləğ) vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmış şəxslər 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə min manatdan iki min manatadək cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar. Bu əməl mütəşəkkil dəstə tərəfindən törədildikdə və ya onlar külli miqdarda (50.000 manatdan yuxarı məbləğ) vergini büdcədən yayındırdıqda isə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə və ya üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar.*

Göründüyü kimi, Azərbaycanda vergi öhdəliklərinin icrasından yayınmaq, vergi borcuna etinasız yanaşmaq sərt cəza tədbirlərinin tətbiqini nəzərdə tutur. Bu, dünyanın inkişaf etmiş ölkələrində də belədir və bir çox dövlətlərdə daha sərt cəzalar tətbiq olunur. Xüsusən vergi ödəyicisinin əmlakına (vəsaitlərinə) həbs qoyulması təhlükəsi dünyada vergi intizamının yüksək səviyyədə saxlanmasının ən güclü mexanizmi hesab olunur.

**Rəşad SADIQOV**

## BİR CÜMLƏ - BİR XƏBƏR

«ASAN Xidmət» mərkəzlərində sahibkarlara lisenziyaların verilməsinə başlanılıb.

Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin dəstəyi ilə Bakı şəhəri və 15 bölgədə fəaliyyət göstərən «Elektron Hökumət» təlim-tədris mərkəzləri yaradılıb.

TANAP vasitəsilə Azərbaycan qazının Türkiyəyə çatdırılması 2018-ci ilin iyun ayına planlaşdırılır.

Beynəlxalq Telekommunikasiya İttifaqının hesabatına əsasən, Azərbaycan 100% 3-cü nəsil örtüyünə malik 40 ölkə sırasındadır.

Rusiya-Azərbaycan arasında investisiyaların artırılması və qarşılıqlı qorunması sazişi təsdiq edilib.

Kənd təsərrüfatı məhsullarının elektron qiymət məlumat bazası yaradılır.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı Azərbaycanda yeni layihələr həyata keçirəcək.

# ƏDV saxtakarlığı və vergidənyayınma ilə bağlı seminar

Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) Tbilisi şəhərində «ƏDV saxtakarlığının və vergidənyayınmanın yeni üsullarını və sahələrini müəyyən etmək üçün kəşfiyyat və araşdırmadan səmərəli istifadə» mövzusunda keçirdiyi seminarda 19 ölkədən 34 nümayəndə iştirak etmişdir. Tədbir zamanı «ƏDV karuseli fırıldağının müəyyən edilməsi metodu», «ƏDV saxtakarlığının müəyyən edilməsi məqsədilə texnologiyadan istifadə», «Yüksək zəkadan səmərəli istifadə etməklə ƏDV fırıldaqçılığı ilə mübarizə», «Uyğunluq və risk məlumatlarının əlaqələndirilməsi», «ƏDV və gömrük fırıldaqçılığına struktur yanaşma», «Risklərin qiymətləndirilməsi» və s. mövzularda müzakirələr aparılmışdır.

Seminarda Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin müstəntiqi, 3-cü dərəcəli hüquqşünas Bayram Məhərrəmov da iştirak etmişdir.

# Cinayətin izi ilə...

*İlk baxışdan hüquq-mühafizə orqanlarının iş şəraitini xatırladan otaq Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin kriminalistika laboratoriyasıdır. Cinayət işinin tədqiqi və istintaq hərəkətlərinin araşdırılmasında istifadə edilən müxtəlif qurğu və avadanlıqlar, mikroskop və kriminalistik tədqiqat aparatları, divardan asılmış fotolövhələr, digər əyani vasitələr burada görülən işlər haqqında ilkin təəssürat yaradır.*

Departamentin kriminalistika və uçot bölməsinin rəisi İlqar İbadov deyir ki, vergi orqanlarının səlahiyyətlərinə vergi cinayətləri üzrə yoxlama, təhqiqat və istintaq aparmaq, əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək kimi məsələlər daxildir: «Bir neçə ay əvvəl vergi orqanı əməkdaşlarının spirtli içkilər və tütün məmulatları istehsalçıları olan vergi ödəyiciləri ilə keçirilən görüşündə bir epizod diqqət çəkmişdi. Saxta aksiz markası ilə satılan məhsullara nəzarətin gücləndirilməsinə baxmayaraq, vergi ödəyicilərinin yenə də saxta markalardan istifadə etməsi hallarının artması faktları vurğulanmışdı. Həmin hallarla bağlı xeyli sayda şəxsin cinayət məsuliyyətinə cəlb olunduğu, həbs edildiyi barədə xəbərdarlıqlar edilmiş, heç kəsin cinayətdən qaça bilməyəcəkləri bildirilmişdi. Amma son məlumatlar göstərir ki, saxta aksiz markası ilə malların istehsalı və satışı sanki bəzi ödəyicilərin «həyat vərdişinə» çevrilib».

***Aksiz markası nə üçün lazımdır?***

İ. İbadovun sözlərinə görə, aksiz markası siqaret və tütün məhsullarının istehsal və idxal həcmini, miqdarını müəyyən etmək, bu məhsulların dövriyyəsini tənzimləmək üçün mühüm vasitədir. Aksiz markaları siqaret və tütün məhsullarının istehsalı, yaxud idxal fəaliyyəti ilə məşğul olan müəssisə, eləcə də fiziki şəxslər tərəfindən Maliyyə Nazirliyinə sifariş əsasında hazırlanır. Xarici ölkələrdə hazırlanaraq ölkəmizə gətirilən markalar lotereya, pul əskinasları, istiqraz və digər qiymətli kağızlar qrupuna aid edildiyindən, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən qeydə alınmaqla, malların mənşəyinə uyğun olaraq siyahı üzrə nömrələrin satışı təşkil edilir. Beləliklə, aksiz markası sifarişçinin tələbindən asılı olan sayda çap edilir və ona çatdırılır. İqtisadiyyat və Sənaye Nazirliyi isə markanın əldə edilməsinə və satışına nəzarət edir.

Azərbaycanda istehsal olunan mallara aksiz markaları istehsal müəssisəsi tərəfindən onun yerləşdiyi ərazidə yapışdırılır. Xarici ölkələrdən Azərbaycana gətirilən mallara görə aksiz markaları isə yerli istehsalçı tərəfindən sifariş verilir. Bu cür malların markası idxal markası kimi qeydə alınır və malı idxal edən şəxs tərəfindən gömrük orqanlarının əməkdaşlarının nəzarəti altında yapışdırılır. Beləliklə, həm istehsal, həm də idxal məhsulu üzrə aksiz markası müvafiq dövlət qurumları tərəfindən siyahı üzrə qeydə alındığı üçün onların sayı barədə müfəssəl məlumat olur. Siyahı üzrə məlumatlar Vergilər Nazirliyinə göndərilir.

***Vergilər Nazirliyinin səlahiyyətləri***

Vergilər Nazirliyi aksiz markası ilə markalanmalı olan məhsulların istehsalı, idxalı və satışına nəzarəti həyata keçirir. Vergi orqanları bu malların saxta olub-olmamasını müəyyən edərkən, ilk növbədə, iki mühüm faktı əsas götürürlər:

- respublika ərazisində istehsal edilən aksizli malların istehsal binasının hüdudlarından kənara çıxarılması;
- idxal edilən aksizli malların gömrük xidmətinin nəzarətindən çıxması halları.

Aksizli malların markalanmasına nəzarət ödəyicilərin müvafiq binalarında nəzarət postları, ölçü cihazları, plomblar vurmaqla və digər tədbirlər görülməklə həyata keçirilir. Nəzarət tədbirləri zamanı markalanmalı olan aksizli malların ilkin təsdiqedici sənədləri (mal-nəqliyyat qaiməsi, vergi hesab-fakturası və sair) yoxlanılır. Qanunsuzluqlar olduqda həmin mallar vergi orqanları tərəfindən siyahıya alınır. Bundan sonra vergi ödəyicisi siyahıya alınmış aksiz markası olmayan mallara sahiblik, istifadə etmək və ya sərəncam vermək hüququna malik olmur. Bundan əlavə, vergi orqanları məhkəmənin qərarı ilə müsadirə edilmiş aksiz markası olmayan və ya saxta aksiz markaları ilə markalanmış malların satışını qanunvericiliyə



uyğun olaraq təşkil etmək hüququna malikdirlər. Burada məqsəd müsadirə olunmuş aksizsiz malların operativ qaydada satılması və satışdan daxil olan məbləğin qısa vaxtda büdcəyə alınmasıdır.

***Aksiz markasının saxta olub-olmaması necə müəyyən olunur?***

Departamentin kriminalistika və uçot bölməsinin baş kriminalisti Çingiz Ağayevin sözlərinə görə, markaların üzərində Azərbaycan Respublikasının simvolları, seriya, sıra nömrəsi, təyinatı və növü əks olunur. Xüsusi kağız materialı ilə hazırlanmış aksiz markasının üzərində qeydlər dəqiq həkk olunur, adi gözlə görünməyən kiçik ölçülü yazılar 10-100 dəfəyə kimi böyütdükdə daha aydın şəkildə oxunur. Ultrabənövşəyi işıqla markaya diqqət yetirdikdə üzərindəki gerbin orta səkkizguşəli ulduz hissəsi, sünbül işarəsinin bir hissəsi və «Azərbaycan Respublikası», «Maliyə Nazirliyi», «aksiz markası» sözləri parlaq şəkildə görünür, aydın və dəqiqliklə oxunur. Markanın holaqram hissəsini bir neçə dəfə böyütdükdə isə üzərində Azərbaycanın bayrağı, xəritəsi, gerbi kimi rəmzlərdəki rəng-cizgilər aydın görünür.

Eyni seriyaya malik olan aksiz markalarının sıra nömrələri təkrarlanmamalı, istehsal və idxal üçün nəzərdə tutulmuş aksiz markalarının rəngləri bir-birindən fərqlənməlidir. Markalar malların şəffaf sellofan örtüyünün altında yapışdırılır. Məhsul istifadə üçün açıldıqda həmin markalar təkrar istifadə üçün yararsız hala düşməlidir.

***Saxta aksiz markaları harada hazırlanır?***

Son illər poliqrafiya texnikasının imkanlarının artması işbazların saxta aksiz markaları hazırlamasını asanlaşdırıb. Dünya miqyasında pul əskinaslarının və digər qiymətli kağızların saxta yolla hazırlanması cinayətlərinin sayı da artıb. Aksiz markaları da bir sıra xüsusiyyətlərinə görə kağız əskinaslara daha çox bənzədiyindən, işbazlar tərəfindən müxtəlif poliqrafiya vasitələri, skaner və surətçıxarma aparatları ilə hazırlanır. Bu zaman şəxslər aksizin mətn, rəng və qoruyucu elementlərinin oxşarı nə qədər peşəkarlıqla hazırlansa da, həqiqi markanın gözlə görünməyən «gizli sirləri» kustarlığın nişanələrini dərhal üzə çıxarır.

***Yoxlamalara zərurət nədən yaranır?***

Vergi orqanları yoxlama zamanı aksiz markası ilə bağlı nişanların, məlumatların, hansısa rekvizitlərin sənəddə dəqiq əks etdirilmədiyini, yaxud saxtakarlıq əlamətlərinin olduğunu müəyyən etdikdə vergi nəzarətinə başlayırlar. Aksiz markalarının saxta olub-olmamasında əsas iş ekspert-kriminalistlərin üzərinə düşür. Onların təklif etdiyi xüsusi yoxlama tədbirləri zamanı markaların saxtalaşdırılması aşkar edilir. Bu cür cinayətlərin təfərrüatlı və daha dəqiq aşkar olunmasında laboratoriya tədqiqatlarının xüsusi rolu var.

Ç.Ağayev bildirir ki, istifadə olunan texniki-kriminalistik vasitələrin köməyi ilə ekspert-kriminalistlər istintaq üçün əhəmiyyət kəsb edən çoxsaylı halları ortaya çıxarır. Laboratoriyanın mövcud infrastrukturu imzaların, möhür və ştampların saxtalaşdırılması, sənədlərin və sözlərin müxtəlif hissələrinin, mətnin fraqmentlərinin dəyişdirilməsi, kimyəvi reaktiv və məhlullarla mətnin bir hissəsinin silinməsi, əlavələr etməklə mətnə hərflərin, sözlərin və söz birləşmələrinin daxil edilməsi və s. kimi halları müəyyənləşdirməyə imkan verir. Bütün bunlar texniki-kriminalistik ekspertizanın köməyi ilə aşkara çıxarılır. Obyektlərin ilkin tədqiqi zamanı texniki vasitələrdən: kriminalistik mikroskoplar, xüsusi lampalar, lupalar, xətkeşlər, ruletkalar, pərgarlar, elektroqrafarez və optik qurğulardan istifadə edilir. Zərurət olduqda lüminnessensiya analizi aparılır ki, bu zaman maddələrin xüsusiyyətləri infraqırmızı və ultrabənövşəyi şüalar vasitəsilə öyrənilir.

***Cərimə və ya cinayət məsuliyyəti***

Aksiz markası olmadan malların istehsalı, idxalı və satışı ilə bağlı inzibati cərimələr tətbiq olunur. İnzibati Xətalar Məcəlləsinin 229-cu maddəsinə əsasən, belə marka olmadan məhsulların az miqdarda satılmasına, satış məqsədi ilə saxlanılmasına və ya istehsal binasının hüquqlarından kənara çıxarılmasına görə fiziki şəxslər 35 manatdan 40 manatadək, vəzifəli şəxslər 80 manatdan 90 manatadək, hüquqi şəxslər isə 200 manatdan 300 manatadək miqdarda cərimə edilir.

Cinayət Məcəlləsinin 213.1-ci maddəsinə əsasən, aksiz markası ilə markalanmalı olan məhsulları xeyli miqdarda istehsal etmə, satma və idxala görə, əmlakı müsadirə olunmaqla, 1000 manatdan 3000 manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulub. Eyni əməlləri külli miqdar təşkil etməklə, təkrar və qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədənlər əmlakı müsadirə olunmaqla beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar.

***Vergi və hüquq-mühafizə orqanları arasında yeni əməkdaşlıq planı***

İlqar İbadov deyir ki, istər saxta aksizlərin, istərsə də digər cinayətlərin aşkara çıxarılmasında vergi orqanları ilə hüquq-mühafizə orqanları arasında əlaqələndirmə fəaliyyətinin gücləndirilməsi nəzərdə tutulub. «Vergi və hüquq-mühafizə orqanları arasında əlaqələndirmə fəaliyyətinin təşkili qaydaları»na əsasən, Vergilər Nazirliyinin səlahiyyətlərinə aid edilmiş cinayətlərin aşkar olunması, qarşısının alınması və açılması, habelə vergi nəzarəti tədbirlərindən yayınan şəxslərin tapılması sahəsində vergi orqanları ilə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti və digər hüquq-mühafizə orqanları arasında əlaqələndirmə fəaliyyətinin təşkili planlaşdırılır.

Əməkdaşlığa əsasən, qanunsuz və yalançı sahibkarlıq fəaliyyəti ilə məşğul olma, saxta aksiz markalarını hazırlama, əldə etmə, satma, satış məqsədilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal, habelə nəzarət markalarının qəsdən məhv edilməsi, saxtalaşdırılması, qeyri-qanuni yolla hazırlanması, istifadəsi və satışı barədə vergi orqanlarına daxil olan məlumatlarla bağlı müvafiq qurum tərəfindən Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə müraciət ediləcək. Tərəflər buna uyğun olaraq müvafiq tədbirlər həyata keçirəcək.

**Elbrus CƏFƏRLİ**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Şou-biznesə aid fəaliyyətlərlə məşğul olan şəxslərin vergiyə cəlb edilməsi

Vergi (vergi ödəmə) mədəniyyətinin yüksək olduğu ölkələrdə bu mədəniyyətin formalaşdırılmasında müstəsna əməyi və zəhməti olan dövlət qurumu (məsələn, bizim ölkədə Vergilər Nazirliyi) ilə bərabər yaşadığı cəmiyyətdə populyarlığı və özəl istedadları ilə zəngin olan az sayda fiziki şəxslər (xüsusi populyarlıq əldə edən vətəndaşlar) dövlətin xeyrinə ödədikləri vergiləri elan etməklə və bununla da fəxr hissinin olduğunu göstərməklə digər vətəndaşlara öz müsbət töhvələrini verirlər. Cəmiyyətdə öz fəallıqları ilə seçilən populyar biznesmenlər və sosial formada ideallaşlaşdırılan (insanların simpatiyasına çevrilən) az sayda şəxslər vardır ki, həmin şəxslərin ictimaiyyətin düşüncələrinin yönləndirilməsində rolunun olması qaçılmazdır. Belə şəxslərin üzərində sanki, bir sosial məsuliyyət yaranır və onlar daha çox ictimai əhəmiyyətli insanlara çevrilməklə istər-istəməz ictimai qınağın astanasında olurlar. Ona görə də bu cür fiziki şəxslərin öz fəaliyyətlərində uçot və vergi məsələlərindəki dürüstlüklərinə fikir verməsi vacibləşir. Belə fəaliyyətin iştirakçılarından biri də şou-biznesə aid olan fəaliyyətlərlə məşğul olan şəxslərdir.

Şou-biznes nədir? Bunu biznesin «şou» növü, əslində isə əyləncə sahəsində kommersiya fəaliyyəti adlandırmaq olar. Məsələn, fərdi və ya qrup şəklində musiqili estrada konsertlərinin keçirilməsi, musiqili video-kliplərin çəkilişi və satışı, kino filmlərin və teatr tamaşalarının istehsalı və tirajlanması, əyləncəli tv və radio proqramlarının təqdimatı, gözəllik müsabiqələrinin keçirilməsi, mötəbər idman yarışlarının keçirilməsini bu fəaliyyətə aid etmək olar.

Qeyd edək ki, əyləncə sahəsində fəaliyyət daha çox mədəniyyət sahəsini əhatə edir. Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanununda (21.12.2012-ci il tarixli, 506-IVQ nömrəli) göstərilən mədəniyyət sahəsindəki fəaliyyət istiqamətləri içərisində dolayısı ilə şou-bizneslə tam əlaqəli istiqamətləri (maddə 20.1.6. peşəkar və həvəskar yaradıcılıq fəaliyyəti; maddə 20.1.7. audiovizual əsərlərin yaradılması və yayımlanması; maddə 20.1.8. kinematoqrafiya fəaliyyəti; 20.1.9. teatr-konsert fəaliyyəti və digər maddələr) görmək mümkündür. Əslində, şou sahəsində fəaliyyətlər mədəniyyət sahəsində fəaliyyətlər (maddə 1.0.5. mədəniyyət xidmətləri - şəxslərin mədəni-mənəvi-estetik ehtiyaclarının ödənilməsi məqsədilə göstərilən xidmətlər və yaradılan şərait) kimi qəbul edilməlidir və bu baxımdan da şou-biznes sahəsində fəaliyyət göstərən şəxslər «Mədəniyyət haqqında» Qanunun tələblərini nəzərə almalıdırlar.

Şou-biznes iştirakçıları kimlərdir?

Hazırda bizim cəmiyyətdə şou-biznesə aid olan fəaliyyətlərlə məşğul olanlar içərisində adları ən çox çəkilən sənət sahibləri aşağıdakılardır:

- Müğənnilər (fərdi və ya qrup şəklində mahnı ifaçıları və xüsusi titullar əldə edən artistlər)
- Musiqiçilər (musiqi alətlərində ifa edən şəxslər)
- Tamadalar (toy və digər şənliklərin aparıcısı)
- Şoumenlər (fərdi qaydada şou proqramların aparıcıları)
- Prodüserlər (şou, konsert və digər əyləncəli tədbirlərin təşkilatçıları)
- Diceylər
- Müxtəlif şou-proqramların (xınayaxdı, klounluq və digər) aparıcıları
- Rəqqaslar
- Səhnə arxası çalışanlar (rejissor, video operator, qrimçi, assistent və digərləri)
- Fərdi çalışan aktyorlar (teatr-tamaşa zallarında bədii rol ifaçıları)

Göstərilən sənət sahiblərindən başqa da şou-biznes nümayəndələri vardır. Lakin bunların içərisində ən çox qınağa məruz qalanlar müğənnilərdir. Bu baxımdan şou-biznes nümayəndələri, xüsusən də sahibkar müğənnilər öz vergi mükəlləfiyyətləri və ümumiyyətlə, vergi tənzimlənməsi məsələsini qanuna uyğun həyata keçirmədiyi halda digər sahibkarlara nisbətdə daha çox ictimai, həmçinin qanuni risk daşıyırlar. Hazırda ölkədə fəaliyyət göstərən şou-biznes nümayəndələrinin öz vergi öhdəliklərini necə müəyyənləşdirmələri və həyata keçirdiyi maliyyə əməliyyatlarının necə uçota almaları barədə müxtəlif fikirlər dolaşmaqdadır. Bu sahədə çalışan şəxslərin fəaliyyətinin uçotu və vergi mükəlləfiyyətlərinin müəyyənləşdirilməsində ümumi fikri formalaşdırmaq məqsədilə şou-biznes fəaliyyətini vergi nöqteyi nəzərindən təhlil edək.

Şou-biznes sahəsi ilə məşğul olmaqla fərdi qaydada (özəl olaraq) gəlir əldə etmək istəyən fiziki şəxs (məsələn, müğənni) bu fəaliyyətə başlamazdan əvvəl vergi orqanında uçota durmaqla VÖEN əldə etməlidir. Həmçinin DSMF-da, Statistika şöbəsində qeydiyyatını yoxlamalıdır, eyni zamanda Məşğulluq mərkəzlərinə də qeydiyyatla bağlı müvafiq məlumatları verməlidir. Hər 4 dövlət orqanında qeydiyyatı təmin edilən fiziki şəxs-müğənni fərdi sahibkar kimi fəaliyyət göstərə bilər.

Şou-bizneslə məşğul olan fiziki şəxs vergi orqanında qeydiyyat ərizəsini doldurarkən sistemdə olan aşağıdakı fəaliyyət kodlarından birini və ya bir-neçəsini seçməlidir:

| F/S kodu | Fəaliyyət növünün adı |
|---|---|
| 90010 | səhnə sənəti |
| 90012 | musiqiçilər |
| 90020 | səhnə sənəti sahəsində yardımçı fəaliyyət |
| 90030 | incəsənətin sair sahələri üzrə fəaliyyət |
| 90040 | teatr və konsert zallarının fəaliyyəti |
| 93210 | istirahət və əyləncə parklarının fəaliyyəti |
| 93290 | istirahət və əyləncələrin təşkili üzrə sair fəaliyyət |

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizi davam etdiririk. Bu dəfə də yeni hesablar planında 201 saylı «Xammal və materiallar» hesabı üzrə materialların xidmətlərin göstərilməsi və ya işlərin görülməsi zamanı xidmət göstərən tərəfindən xərclərə silinməsi (buraxılması) ilə bağlı əməliyyatlara nəzər yetirəcəyik. Göstərilən nümunələr şərti və öyrətmə xarakteri daşıyır.

Əvvəlki yazılarımızda da qeyd etmişdik ki, təsərrüfat subyektləri tərəfindən 202№-li «istehsalat məsrəfləri» hesabından istifadə etməklə xidmət göstərilməsi və iş görülməsi zamanı çəkilən cari məsrəfləri xidmətlər və işlər təhvil verilənədək əks etdirmək olar.

***Misal:*** Dəmir tərkibli əşyaların hazırlanması ilə məşğul olan müəssisə (icraçı) tərəfindən qəbul edilmiş sifariş üzrə 28.01.2015-ci il tarixdə sifarişçi ilə müqavilə bağlanmış və müqaviləyə görə sifarişçi üçün 1 ədəd darvaza hazırlanmalıdır. Müqavilə razılaşmasına əsasən, sifarişçi darvazanın hazırlanması üçün tələb olunan bütün materialları özü alıb icraçıya təhvil verəcəkdir. Yalnız darvazanın boyanması üçün tələb olunan rəngli boya materialını sifarişçi öz hesabından istifadə edəcəkdir, həmçinin müəssisə (icraçı) darvazanın hazırlanması ilə bağlı işləri yerinə yetirəcəkdir. Sifarişçinin verəcəyi materiallar müqavilənin dəyərinə aid deyildir. Müqaviləyə əsasən, rəngli boyanın sifarişçi üçün tətbiq olunan qiyməti 40,00 manat (bu materialın alış qiyməti 30,00 manatdır), darvazanın hazırlanması ilə bağlı görülən işlərin dəyəri isə 500,00 manat, cəmi müqavilə dəyəri ƏDV-siz 540,00 manat (500,00 + 40,00) razılaşdırılır. 03.02.2015-ci il tarixdə müəssisənin anbarından tələb olunan qədər rəngli boya və sifarişçi tərəfindən qalan bütün materiallar (fərz edək ki, sifarişçi tərəfindən bu materiallara ƏDV-siz 600,00 manat xərclənmişdir) müəssisənin (icraçının) xidməti icra edən məsul işçisinə təhvil verilmiş və 05.03.2015-ci il tarixdə icraçı tərəfindən darvaza hazırlanaraq iş başa çatdırılmış və hazır darvaza sifarişçiyə təhvil verilmişdir. Həmin tarixdə işlərin yerinə yetirilməsi ilə bağlı işlərin adı, istifadə olunan boyanın adı, miqdarı və digər zəruri göstəricilər əks etdirilməklə təhvil-təslim aktı tərtib olunmuş və tərəflərin imzaları ilə təsdiq edilmişdir. Bu əməliyyatlarla bağlı veriləcək ikili yazılışları təyin etmək tələb olunur.

Əvvəlcə bəzi maraqlı məqamlara aydınlıq gətirək. Sifarişçi tərəfindən materialların müəssisəyə (icraçıya) təhvil verilməsini adi qaydada tərtib olunan aktla da həyata keçirmək olar. Həmçinin bu əməliyyatı sifarişçinin ciddi hesabat blankı hesab edilən qaimə-faktura ilə də rəsmiləşdirmək mümkündür. Belə halda, qaimə-fakturada xüsusi qeyd (məsələn, «28.01.2015-ci il tarixli müqaviləyə əsasən») etmək lazımdır ki, sonradan materialların belə təhvil verilməsi sifarişçi üçün «malların təqdim edilməsi» kimi hesab edilməsin. Əslində, bu əməliyyat çərçivəsində icraçıya ötürülən materiallar üzərində mülkiyyət hüququ sifarişçidə saxlanılır. Sonda hazırlanan məhsul, yəni darvazanın sifarişçiyə təhvil verilməsi üçün müəssisə (icraçı) tərəfindən ciddi hesabat blankı - qaimə-fakturanın tərtib edilməsinə ehtiyac yaranmır, çünki icraçı müqaviləyə əsasən darvazanın hazırlanması işini yerinə yetirir, yəni icraçı tərəfindən həyata keçirilən əməliyyat «mal təqdim edilməsi» deyil, «iş görülməsi» kimi qəbul edilməlidir. Bu səbəbdən də icraçı görülən işlərin təhvil-təslim aktını tərtib etməklə kifayətlənə bilər.

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| 03.02.2015 | 202, İstehsal məsrəfləri | Rəngli boya (material) işin görülməsi üçün daxili qaimə tərtib edilməklə anbardan (məsələn, anbardar işləyən maddi-məsul şəxsdən) işi icra edən maddi-məsul şəxsə verilmişdir. | 30,00 | |
| 03.02.2015 | 201, Xammal və materiallar | Rəngli boya (material) işin görülməsi üçün daxili qaimə tərtib edilməklə anbardan (məsələn, anbardar işləyən maddi-məsul şəxsdən) işi icra edən maddi-məsul şəxsə verilmişdir. | | 30,00 |
| 05.03.2015 | 211, Alıcı və sifarişçilərin qısamüddətli debitor borcları | İşlər yetinə yetirilmiş və təhvil-təslim aktı tərtib olunmaqla təhvil verilmişdir, həmçinin sifarişçiyə VHF təqdim edilmişdir. | 540,00 | |
| 05.03.2015 | 601, Satış (göstərilən xidmət, görülən iş) | İşlər yetinə yetirilmiş və təhvil-təslim aktı tərtib olunmaqla təhvil verilmişdir, həmçinin sifarişçiyə VHF təqdim edilmişdir. | | 540,00 |
| 05.03.2015 | 211, Alıcı və sifarişçilərin qısamüddətli debitor borcları | Görülən işlərin əsas dəyərinin üzərinə ƏDV hesablanmışdır. | 97,20 | |
| 05.03.2015 | 521, Vergi öhdəlikləri | Göstərilən xidmətlərin əsas dəyərinin üzərinə ƏDV hesablanmışdır. | | 97,20 |
| 05.03.2015 | 701, Satışın maya dəyəri | İşlərin görülməsi zamanı istifadə olunan rəngli boya işlərin təhvil-təslim edildiyi üçün icraçının maddi-məsul şəxsinin üzərindən silinmişdir. | 30,00 | |
| 05.03.2015 | 201, Xammal və materiallar | İşlərin görülməsi zamanı istifadə olunan rəngli boya işlərin təhvil-təslim edildiyi üçün icraçının maddi-məsul şəxsinin üzərindən silinmişdir. | | 30,00 |

Cədvəldən göründüyü kimi, sifarişçidən qəbul edilən materiallara müəssisə (icraçı) tərəfindən hər hansı ikili yazılış verilməmişdir, verilsə idi, bu, düzgün olmazdı, çünki icraçının sifarişçidən tələb etdiyi muzdun (ƏDV ilə 637,20 manatın) tərkibində sifarişçidən qəbul edilən materialların dəyəri nəzərə alınmayıb. Lakin sifarişçi üçün bu darvazanın qiymətləndirilmiş dəyəri 97,20 manat ƏDV məbləğini əvəzləşdirdiyi halda, 1140,00 (540,00 + 600,00) manat müəyyən ediləcəkdir. Qeyd edək ki, cədvəldə göstərilən ikili yazılışlarda 202№-li «İstehsal məsrəfləri» və 701№-li «Satışın maya dəyəri» hesabları üzrə digər təyinatlı xərclər göstərilməyib, ona görə ki, mövzumuzda yalnız material məsrəflərindən bəhs edilib.

## vergi təqvimi

| NOYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23/30 | 24 | 25 | 26 | 27 | 28 | 29 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

16 noyabr - «5», «(5)» və «6».

20 noyabr - «(1-1)», «3», «4», «7», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Fiziki şəxslər illik əmlak vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. İllik torpaq vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«7» - Yol vergisi:** Yol vergisi üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar onların aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.



beynəlxalq panoram

# Birləşmiş Ərəb Əmirlikləri radikal addımlara hazırlaşır

Dünya bazarında neftin qiymətinin aşağı düşməsi Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) hökumətini də təsirli tədbirlərə əl atmağa məcbur edib. Hökumət qeyri-neft sektorundan gəlirləri artırmaq məqsədilə əlavə dəyər vergisi və müəssisələrə mənfəət vergisi tətbiq etmək barədə tədbirlər layihəsi hazırlayıb. Fiskal sistemdə radikal dəyişikliklər barədə qərar yaxın zamanlarda qəbul edilə bilər.

Verginin tətbiqi ideyası neftin qiymətinin kəskin şəkildə aşağı düşməsindən sonra xeyli aktuallaşıb. Bu addım, ilk növbədə, əmirliklərin xəzinəsinə daxilolmaları kompensasiya etməyə yönəlib. ƏDV-nin ilkin baza dərəcəsi 5% təşkil edə bilər. Vergi zinət əşyalarına, spirtli içkilərə və tütün məmulatlarına artan dərəcə tətbiq ediləcək, gündəlik tələbatlı mal və ərzaqlar isə vergidən azad olunacaq. ƏDV-nin tətbiq edilmə tarixi hələlik bilinmir, çünki qanun Federal Milli Şura və Federal Ali Şura tərəfindən təsdiq olunaraq Prezident tərəfindən imzalanmalıdır. Təklif qəbul olunarsa, BƏƏ Fars körfəzi ölkələri sırasında istehlak vergisini tətbiq edən ilk ölkə olacaq.



Qeyd etmək yerinə düşər ki, regionda ticarət axınlarının dəyişməsinə yol verməmək məqsədilə ƏDV-nin Fars körfəzi ölkələrinin hamısında eyni vaxtda tətbiq ediləcəyi nəzərdə tutulurdu. Lakin Ərəb Dövlətlərinin Əməkdaşlığı Şurasının üzvləri arasında fikir ayrılığına görə, bu ideyanı həyata keçirmək mümkün olmadı. BƏƏ hökuməti isə qonşularını gözləməməyə qərar verərək, ƏDV və korporativ verginin tətbiqi prosesini sürətləndirib. Hazırda BƏƏ-nin vergi sistemində korporativ vergi mövcud olsa da, yalnız bank sektoruna tətbiq edilir.

Hazırda BƏƏ-də ümumfederal vergi sistemi mövcud deyil. Şirkətlərdən əmirliklər səviyyəsində ayrı-ayrı vergilər yığılır, fiziki şəxslərin gəlirlərindən isə ümumiyyətlə vergi tutulmur.

Xarici ölkələrin təcrübəsi

# Polşa Respublikasının vergi sistemi: *mənfəət vergisi*



**Son statistik məlumatlara görə, Polşada ümumi vergi daxilolmaları 75,6 mlrd. dollar, vergi daxilolmalarının ÜDM-ə nisbəti 14,4% təşkil edib. 17 milyon 734 min 285 vergi ödəyicisi olan bu ölkədə 42.801 vergi əməkdaşı fəaliyyət göstərir, bununla da hər vergi əməkdaşına 414 vergi ödəyicisi düşür. Vergi ödəyicilərinin əhalinin sayında xüsusi çəkisi 46%, 1 vergi ödəyicisinə düşən ödənilmiş vergi isə 4263 ABŞ dolları təşkil edir.**

Polşada müəssisələr mənfəət vergisi, əməkhaqqı (sosial sığorta ödəmələri), kapital vergiləri (daşınmaz əmlak vergisi), əlavə dəyər vergisi və digər müxtəlif dolayı vergilərin (mülki-hüquqi əqdlər vergisi, möhür vergisi) ödəyiciləridir. Gəmiçilik şirkətləri əlavə tonnaj vergisinə də cəlb olunurlar.

Polşanın vergi sistemi klassik vergi sisteminə aiddir. Mənfəət şirkət səviyyəsində tam vergiyə cəlb olunur, bölüşdürülmüş mənfəət isə səhmdarlara (korporativ və fərdi, rezident və qeyri-rezident) çatdıqdan sonra son ödəmə mənbəyində vergiyə cəlb olunur. Mənfəət vergisi vergiyə cəlb olunan mənfəət və kapital gəlirlərinə tətbiq edilir. Rezident müəssisələr bütün dünya üzrə gəlirlərə, qeyri-rezidentlər isə yalnız Polşada əldə etdikləri gəlirlərə münasibətdə mənfəət vergisinin ödəyiciləridir.

### *Vergi ödəyiciləri*

Mənfəət vergisinə cəlb olunan müəssisələrə səhmdar cəmiyyətləri, məhdud məsuliyyətli cəmiyyətlər, dövlət müəssisələri, kooperativ müəssisələr və müəssisələrin vergi qrupları daxildir. 1 yanvar 2014-cü ildən səhmlər üzrə məhdud Polşa tərəfdaşlıqları da mənfəət vergisinə cəlb olunan korporativ müəssisələr hesab edilir. Məhdud tərəfdaşlıqlar vergi məqsədləri üçün şəffaf olaraq qalır. Onların tərəfdaşları öz mənfəət paylarına uyğun fərdi qaydada vergiyə cəlb olunurlar.

Avropa iqtisadi zonasında yerləşənlər də daxil olmaqla, investisiya və pensiya fondları mənfəət vergisindən azaddır.

### *Vergiyə cəlb olunan gəlir*

Müəssisə hüquqi ünvanı və ya idarəetmə yeri Polşada olduqda, vergi məqsədləri üçün bu ölkənin rezidenti hesab edilir. Yaranmaqda olan şirkətlər də vergi məqsədləri üçün Polşa rezidenti hesab oluna bilər.

Rezident müəssisələr bütün dünya üzrə gəlirlərinə görə mənfəət vergisinin ödəyiciləridir. Mənfəət və kapital gəlirlərinin bütün kateqoriyaları toplanır və ümumi mənfəət vergisi dərəcəsi tətbiq edilməklə vergiyə cəlb olunur. Qəbzlər ödənilməli olduqda, onlara gəlir kimi baxılır. Buna baxmayaraq, faizlərə nağd hesablama metodu tətbiq edilir. Məzənnə fərqi gəlirləri nağd və ya hesablama metodu əsasında hesablana bilər. Qeyri-rezidentlərin vergiyə cəlb olunan gəlirlərini maliyyə sənədlərinə əsasən hesablamaq mümkün olmadıqda, xüsusi rejim tətbiq edilir.

### *Dərəcələr*

Polşada mənfəət vergisinin dərəcəsi 19%-dir. Kapital gəlirləri üzrə ayrıca vergi mövcud deyildir *(bax cədvələ)*.

### *Vergidən azad olunan gəlir*

Rezident müəssisələrin adi dividendlər, milli və ya yerli hakimiyyət orqanlarından alınmış subsidiyalar və xarici hökumət və beynəlxalq təşkilatlardan alınmış bəzi qrant növləri kimi gəlirləri mənfəət vergisindən azaddır. Xüsusi iqtisadi zonalarda fəaliyyət göstərən müəssisələrin gəlirləri (müəyyən məbləğədək olan hissəsi) mənfəət vergisindən azaddır.

### *Vergi bəyannamələrinin təqdim edilməsi və verginin ödənilmə müddəti*

Mənfəət vergisi ödəyiciləri üçün vergi ili 12 ardıcıl aydır. Vergi ödəyicisi əksinə qərar qəbul etməsə və vergi orqanlarına bu barədə məlumat çatdırmasa, vergi ili təqvim ili hesab edilir. İllik vergi bəyannaməsi vergi ilindən sonrakı təqvim ilinin 3-cü ayının sonunadək təqdim olunmalıdır. Mənfəət vergisi vergi ödəyiciləri tərəfindən hesablanır. Vergi ödəyiciləri əvvəlki ay əldə etdikləri mənfəət əsasında növbəti ayın 20-dək aylıq ödəmələr şəklində mənfəət vergisi üzrə qabaqcadan ödəmələr həyata keçirməlidirlər. Aylıq vergi ilin əvvəlindən əldə edilmiş mənfəət üzrə hesablanmış vergi ilə aylıq ödənilmiş vergilərin cəmi arasındakı fərq əsasında hesablanır. ƏDV də daxil olmaqla illik dövriyyəsi 1,28 milyon ABŞ dollarından aşağı olan kiçik vergi ödəyiciləri və yeni yaradılmış vergi ödəyiciləri qabaqcadan ödəmələri rüblük həyata keçirə bilərlər. Növbəti təqvim ilinin 31 mart tarixinədək illik vergi bəyannamələri təqdim edilməli və vergilər ödənilməlidir. İllik vergi məbləği ilə qabaqcadan ödənilmiş aylıq vergilərin cəmi arasındakı fərq növbəti təqvim ilinin 3-cü ayının sonunadək ödənilməlidir.

**Mənfəət vergisinin illər üzrə dərəcəsi (%-lə)**




Artıq ödənilmiş vergilər vergi orqanları tərəfindən son hesablama aparıldıqdan sonra 30 gün müddətində geri qaytarılır.

*İcmalı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

## Xəbər lenti

**Cənubi Koreya**nın prezidenti və Çinin baş naziri azad ticarət zonasının yaradılması barədə sazişin imzalanmasına həsr olunmuş mərasimdə sazişi ratifikasiya üçün parlamentə təqdim etmək barədə razılığa gəliblər. Azad ticarət zonasının yaradılması barədə iki ölkə arasında danışıqlar 2012-ci ilin mayında başlanmış, keçən ilin dekabr ayında tamamlanmışdı.

**Hindistan** Vergi İdarəsinin katibi Hasmuk Adia bildirmişdir ki, hökumət korporativ vergi dərəcəsinin azaldılması və bəzi vergi güzəştlərinin ləğv edilməsi məsələsini nəzərdən keçirir. Onun sözlərinə görə, vergi güzəştlərinin tədricən ləğvi ilə bağlı plan yaxın günlərdə təqdim olunacaq. Hökumət, həmçinin, ölkənin aviasiya infrastrukturunu dəstəkləmək üçün təyyarə biletlərinə vergi tətbiq etməyi planlaşdırır.

**Beynəlxalq Valyuta Fondu** (BVF) Yaponiyaya «büdcə konsolidasiyasının ortamüddətli modelini» dəstəkləmək üçün istehlak vergisinin dərəcəsini indiyədək planlaşdırılan səviyyədən yüksəyə qaldırmağı tövsiyə etmişdir. BVF-nin mövqeyinə görə, «büdcə disbalansları Yaponiyada uzunmüddətli iqtisadi sabitliyə təhlükə yaratmaqda davam edir».

**ABŞ**-da tərkibində şəkər olan içkilərə vergi tətbiq olunması 706 mindən artıq piylənmə halının qarşısını alacaq, eləcə də milyardlarla səhiyyə xərclərinə qənaət edilməsinə şərait yaradacaq. Ölkədə nəşr olunan «Səhiyyə işləri» jurnalının apardığı son araşdırma zamanı bu nəticə əldə olunub.

**Kanada**da vergi gəlirləri 2015-2016-cı maliyyə ilinin ilk beş ayı ərzində 10,3% artmış və bununla da büdcə profisiti 2,8 mlrd. Kanada dollarına (2,2 mlrd. manat) çatdırılmışdır.

**Belarus** hökumətinin oktyabrın sonunda qəbul etdiyi qərara əsasən, Vergilər və Yığımlar Nazirliyinə tüfeylilər barədə məlumat bazasının yaradılması və idarə edilməsi həvalə olunub.

**Ukrayna**da 2016-cı ildən iri vergi ödəyiciləri üçün müəyyənləşdirilmiş Xidmət Mərkəzi fəaliyyətə başlayacaq.

**Rusiya**da fiziki şəxslərin öz aktivləri və bank hesabları barədə könüllü bəyanetmə müddəti dekabrın 31-dək davam edəcək. Bununla bağlı qəbul olunmuş qanunun məqsədi Rusiyadan kənarda yaşayan fiziki şəxslərin kapitalının və əmlakının toxunulmazlığı üçün hüquqi təminat yaratmaq, eləcə də vergilərə və yığımlara dair öhdəliklərin vicdanla yerinə yetirilməsini stimullaşdırmaqdır.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Azərbaycan opera müğənnisi (lirik-dramatik tenor), mahir təsnif ifaçısı, musiqi folkloru tədqiqatçısı; 2.Uzaq Şərqdə çay; 3.İnad, təkid; 4.Ağ yundan və kətandan hazırlanmış qədim Roma geyimi; 5.İsveçrədə dairə; 6.Futbol və voleybolda mühafizə funksiyasını yerinə yetirən, güc və təmkin tələb edən oyunçu mövqeyi; 9.Fransanın cənub-şərqində şəhər; 13.İngiltərədə qraflıq; 15.Karbonatlar sinfinə aid süxur (mineral); 16.Məscidlərin qiblə tərəfindəki divarında namaz qılarkən pişnamazın və onun ardınca başqa namaz qılanların üzlərini çevirdikləri yer; 17.Müəyyən edilmiş ölçü vahidinin dəqiq nümunəsi; 18.Alyaska ərazisinə ekspedisiya təşkil etmiş ilk səyyahlardan hesab olunur. Gəmilərlə səfərə çıxarkən Alyaska yaxınlığında yerləşən adada vəfat edib, sonradan ada onun adı ilə adlandırılıb; 20.Hər hansı aktivin pul ilə ifadə olunmuş qiyməti; 21.Fransız təbiətşünası, naturalist, paleontologiya elminin və müasir müqayisəli anatomiyanın atası hesab olunan alim.

**Soldan sağa:** 1.Böyük Britaniyada ali hüquqşünas kateqoriyası; 5.Azərbaycanda düzənlik ərazi; 7.Çıxılması çətin, dolanbac və dolaşıq yolları olan böyük bina, tikili; 8.Birja bağlandıqdan, alqı-satqı sessiyaları qurtardıqdan sonra aparılan ticarət əməliyyatları; 10.Qadın adı; 11.Qədim yunan mifologiyası obrazlarından biri; 12.Antarktidada ən uzun çay, həmçinin mineral adı; 14.Çox qədimdən Şərq ölkələrində becərilən xoş ətirli qiymətli meyvə; 19.Monqolustanda şəhər; 21.Belçika riyaziyyatçısı, astronomu, meteoroloq və sosioloqun adı. Elmi statistikanın banisi; 22.Yuxu; 23.Kişi adı; 24.Kimyəvi element; 25.Almaniya parlamenti.



*Çox qədimdən Şərq ölkələrində becərilən xoş ətirli qiymətli meyvə. Natürmort. Klod Mone, 1867*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kəklik; 2.Natalya *(Məmmədova)*; 3.İclas; 4.Eqoist; 5.Afina; 6.Olivin; 9.Aqil *(Əliyev)*; 13.Duat; 15.Beysbol; 16.Rodari *(Canni)*; 17.Dallas; 18.Tərtər; 20.İlahə; 21.Güzəm. **Soldan sağa:** 1.Kantilena; 5.Alo; 7.Kotilyon; 8.Fici; 10.İflas; 11.Siqnaxi; 12.Saldo; 14.Alibi; 19.Okinava; 21.Göyçə; 22.Aran; 23.Elizabet; 24.İlə; 25.Assembler.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

## idman

# Sərbəst və yunan-Roma güləşçilərimiz 2-ci oldular




Xəbər verdiyimiz kimi, noyabrın 6-da Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində güləş üzrə Avropa Millətlər Kuboku turniri start götürüb. Turnirdə hər üç güləş növü üzrə Azərbaycan yığma komandaları mübarizə aparıb.

İlk yarış günündə qadın güləşçilər arasında qrup görüşləri keçirilib. Püşkatma nəticəsində Polşa və Rusiya ilə birgə A qrupunda mübarizə aparan qadın yığmamız hər iki görüşdə məğlub olub. Bu nəticə ilə qrupda üçüncü yeri tutan qadın güləşçilərimiz digər qrupun üçüncüsü olan Belarusla 5-ci yer uğrunda görüşdə qalib gələrək turniri 5-ci sırada tamamlayıb.

Yarışların ikinci günündə sərbəst və yunan-Roma güləşi üzrə qrup görüşləri keçirilib. Sərbəst güləşçilərimiz Belarus və Polşa, yunan-Roma güləşçilərimiz isə Türkiyə və Belarus ilə «B» qrupunda mübarizə aparıblar.

«B» qrupunda mübarizə aparan yunan-Roma güləşçilərimiz əvvəlcə belaruslu rəqiblərini, ardınca Türkiyə yığmasını 5:3 hesabı ilə məğlub edib və qrup lideri kimi finala yüksəlib. Sərbəst güləşçilərimiz də əvvəlcə Belarus komandasını 6:1 hesabı ilə məğlub edib, ardınca Polşa idmançıları ilə görüşdə isə 5:3 hesablı qələbə qazanaraq finala yüksəlib.

Finalda həm sərbəst, həm də yunan-Roma yığmamız Rusiya komandası ilə qarşılaşıb. Yunan-Roma güləşçilərinin qarşılaşmasında 6:2 hesabı ilə qalib gələn Rusiya komandası turniri ilk sırada tamamlayıb. Azərbaycan yığması isə Avropa Millətlər Kuboku turnirini gümüş medalla başa vurub.

Sərbəst güləşçilərin qarşılaşmasında hesab 5:3 Rusiya yığmasının xeyrinə başa çatıb. Yeddi güləşçi ilə mübarizə aparan sərbəst güləş üzrə yığmamız da Avropa Millətlər Kuboku turnirinin gümüş medallarına sahib olub.

# Birliyimizi əks etdirən ənənəvi veloyürüş

9 Noyabr - Dövlət Bayrağı Günü ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsi və Azərbaycan Velosiped İdmanı Federasiyasının birgə təşkilatçılığı ilə «Bayrağımız - qürur mənbəyimizdir!» devizi altında ənənəvi veloyürüş keçirilib. Azərbaycanın müxtəlif yaş qrupları üzrə komandalarının üzvləri ilə yanaşı, həvəskar velosipedçilərin də qatıldığı yürüşdə 200-dən artıq idmançı iştirak edib.

İştirakçılar Bayraq Meydanı - Azneft prospekti - Dəniz limanı - Heydər Əliyev Mərkəzi və əks istiqamətdə hərəkət ediblər. 16,5 kilometrlik yürüş paytaxt sakinləri tərəfindən böyük maraqla qarşılanıb. Veloyürüş başladığı yerdə - Dövlət Bayrağı Meydanında başa çatıb.



Qeyd edək ki, Azərbaycan xalqının birliyini əks etdirən bu veloyürüş artıq ənənə halını alıb və hər il Dövlət Bayrağı Günü ərəfəsində keçirilir.

## 8 saniyəlik nokaut




Kikboksinq üzrə ikiqat dünya çempionu, WAKO-nun Avropa çempionatının gümüş mükafatçısı Bəxtiyar İsgəndərzadə Almaniyanın paytaxtı Berlində keçirilən «Battle of Berlin-6» turnirinin qalibi olub. Hazırda Almaniyada yaşayan, lakin beynəlxalq turnirlərdə Azərbaycanı təmsil edən həmyerlimiz Bosniya və Herseqovina idmançısı Jasmin Derviseqiçini cəmi 8 saniyəyə nokauta salıb və  Avropa kəmərini qazanıb.




## Podolski «Qalatasaray»dan gedə bilər

Hazırda Türkiyənin «Qalatasaray» klubunda forma geyən Lukas Podolski yenidən Almaniyaya qayıda bilər «Hoffenhaym» klubunun maraq dairəsində olan 30 yaşlı forvardın indiki komandasından nə vaxt ayrılacağı açıqlanmır. Xatırladaq ki, «Qalatasaray» almaniyalı hücumçunun transferi üçün İngiltərənin «Arsenal» klubuna 2,5 milyon avro ödəyib. Onun İstanbul klubu ilə müqavilə müddəti 2018-ci llədək qüvvədədir.

## mozaika

texnologiya

### Polad kimi... şüşə



Yaponiyalı alimlər möhkəmliyinə görə poladla müqayisə oluna biləcək sınmayan şüşə hazırlayıblar. Onlar bu effektə materialın tərkibindəki alüminium oksidinin payını artırmaqla nail olublar. İxtiranın müəlliflərindən biri, Tokio İnstitutunun professoru Atsunobu Masuno yaxın zamanlarda bu universal şüşələrin kütləvi istehsalı metodlarını hazırlayacaqlarını bildirib. Yeni şüşənin beş il ərzində bazara çıxarılması gözlənilir.

Bu icadın xələfi oksid şüşəsi adlanan digər material sayılır. Onun hazırlanmasında əsas komponent silisiumdur. Materialın möhkəmliyi onun tərkibinə alüminium oksidinin əlavə olunması ilə əldə edilir. Alimlər istehsal prosesini təkmilləşdirərək komponentləri konteynerlərdə deyil, havada qarışdırırlar. Beləliklə, şüşənin hazırlanması prosesinə maneə yaradan kristallaşma neytral mühitdə baş vermir.

İxtiraçılar həddən artıq bərk və tam şəffaf şüşənin əldə olunduğunu iddia edirlər. Yeni materialın möhkəmliyi onun oksidli analoqu ilə müqayisədə təxminən iki dəfə yüksəkdir və poladla eyni səviyyədə ölçülür.

tam ciddi

### 2,2 milyon dollara satılan məktub

ABŞ-ın 16-cı Prezidenti Avraam Linkolnun yazdığı məktub Nyu-Yorkda keçirilən hərracda 2,2 milyon dollara satılıb. Həmin məktub 1865-ci ilin martında daxili işlər naziri Con Aşerə ünvanlanıb. Məktubun məzmununda Linkolnun ikinci inauqurasiya nitqinin son hissəsi də yer alıb.

Alıcının adı açıqlanmır. Hərraca qədər isə məktub Aşer ailəsinin üzvlərinə məxsus olub.

Xatırladaq ki, Avraam Linkoln 1861-ci ilin mart ayından quldarlığın ləğv olunmasının əleyhdarı tərəfindən qətlə yetirildiyi 1865-ci ilin aprel ayınadək ABŞ-ın prezidenti olub. Ford teatrında tamaşa zamanı prezidentin lojasına girən aktyor Con Uilks But tapança ilə onu başından vurub.

faydalı

### Evdə lazım olar

Soyuducudakı arzuolunmaz qoxunu aradan qaldırmaq üçün qoxuları özünə hopduran həm təbii, həm də hava təmizləmək üçün hazırlanmış kimyəvi vasitələrdən istifadə olunur:

- Soyuducuya limon dilimləri, apelsin qabığı və ya çörək qoymaq.
- Üyüdülmüş və ya bütöv qəhvə havanın qoxusunu götürür.
- Soyuducunun divarlarını sarımsaqla və ya baş soğanla silmək də faydalıdır.
- Karton soda və ya duz qutusu da pis qoxunu özünə çəkir.
- Qoxunu udan xüsusi cihazdan istifadə etmək olar. Bu cihaz kömür tozundan hazırlanmış süzgəcdən ibarətdir. Hava süzgəcdən keçərkən soyuducuda qoxu yaratmağa səbəb olan bir çox bakteriyalar məhv olur.
- Soyuducunun içini yumaq üçün xüsusi yuyucu vasitələr var. Onları suya qatıb soyuducunun içini yuyandan sonra qurulamaq lazımdır.
- Soyuducunu sirkə qarışığı ilə də yumaq olar. Bunun üçün bir litr suya bir xörək qaşığı sirkə qatmaq məsləhətdir.
- Ən yaxşı və düzgün yol isə soyuducudan istifadə edərkən onda pis qoxu yaradan səbəblərə yol verməməkdir.

tarixdə bu həftə

### Bayrağımız – qürur mənbəyimiz!

Azərbaycanın dövlət bayrağı ilk dəfə dövlət rəmzi kimi Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin 1918-ci il 9 noyabr tarixli iclasında qəbul olunub.

28 aprel 1920-ci ildə Xalq Cümhuriyyəti süqut etdikdən və sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraqdan imtina edilib. Üçrəngli bayraq ikinci dəfə 17 noyabr 1990-cı ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bərpa edilib və MR-in dövlət bayrağı kimi qəbul olunub. Eyni zamanda, muxtar respublikanın Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırıb. 5 fevral 1991-ci ildə Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxıb və üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verib.



2009-cu il noyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamla 9 noyabr tarixi ölkəmizdə Dövlət Bayrağı Günü kimi qeyd olunur. 2010-cu il sentyabrın 1-də Prezident İlham Əliyevin iştirakı ilə Dövlət Bayrağı Meydanının - Bakı şəhərinin Bayıl sahəsində yerləşən memorial abidə-istirahət parkının təntənəli açılışı olub. Bayraq dirəyinin hündürlüyü 162 m, bünövrəsinin diametri 3,2 m, bünövrənin üst hissəsinin diametri 1,09 m-dir. Qurğunun ümumi kütləsi 220 tondur. Bayrağın eni 35 metr, uzunluğu 70 metr, ümumi sahəsi 2450 kvadratmetr, çəkisi isə təqribən 350 kiloqramdır.

Müstəqil Azərbaycanın dövlət bayrağındakı üç rəngin - göy, qırmızı, yaşıl - ifadə etdiyi «türkçülük, islamçılıq və müasirlik» formulunun müəllifi görkəmli Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadədir.

camiyyat

### Qlobal istiləşmə aclığa yol aça bilər

Hazırda dünyada 795 milyondan çox insan aclıqdan əziyyət çəkir. İqlim dəyişikliyi 2080-ci ildə daha 600 milyon insanın aclıq çəkəcəyinə gətirib çıxara bilər. Qida məsələləri üzrə xüsusi məruzəçi Xilyal Elver vurğulayıb ki, qlobal istiləşmə, quraqlıq və daşqınlar ərzaq təminatına ciddi təsir göstərir. Yüzilliyin sonunadək havanın orta temperaturunun 2-4° Selsi proqnozlaşdırılan artımı kənd təsərrüfatı istehsalı üçün ciddi təhlükədir. «Son zamanlar belə bir fikir yaranıb ki, kənd təsərrüfatında sənaye üsullarının genişləndirilməsi yolu ilə bəşəriyyət özünü dolandıra bilər. Bu yanaşma doğru deyil», - Xilyal Elver əlavə edib.



### Müdriklər deyib ki...

*«Biliyin ağası olmaq üçün zəhmətin köləsi olmaq lazımdır».*

*Onore de Balzak (1799-1850)*

